

## Türk dünyasını birləşdirəcək qardaşlıq yolu - Zəngəzur dəhlizi

10

# Səs



№ 023 (6464) 8 fevral 2022-ci il. Qiyməti 60 qəpik

## "Qarabağ 32 ildən sonra əsarətdən xilas edildi"




3

Türkiyənin "A Haber" telekanalı Qarabağın işğaldan qurtuluşu mövzusunda xüsusi reportaj yayıb

# Aİ-nin Azərbaycana maliyyə paketi ayırması ermənilər özündən çıxarıb



5

*Gülünc və istehzadoğurucu iddiaları ilə özləri-özlərinə təskinlik verirlər*

## Xan Şuşinskinin qızı: "Xalqımızın rəşadətli igid oğullarına təşəkkür edirəm"



*"Azərbaycanın incisi, Qarabağın zümrüd tacı Şuşa şəhərimiz işğaldan azad olunub". Bunu SİA-ya dahi muğam ifaçısı Xan Şuşinskinin qızı Bəyimxanım Verdiyeva deyib. Onun sözlərinə görə, Prezidentin sərəncamı ilə bu il "Şuşa ili" elan olunub: "Mədəniyyət Nazirliyinin Milli kitabxana ilə birgə...*

5

## Hansı tərəvəzlərdə bol protein olur



16



## Gənclər üçün KÖNÜLLÜLÜK NƏDİR

Son zamanlarda ölkəmizdə könüllülük hər sahədə geniş vüsət alıb. Bu gün ölkəmizdə könüllü fəaliyyətinin təşkilini və həyata keçirilməsini təmin edən bir sıra dövlət orqanları, qeyri-hökumət təşkilatları, yerli özünüidarə orqanları var. Könüllülük indiki sosial problemləri həll...

6



## Soros fondu müharibədən sonrakı Ermənistanda kimləri maliyyələşdirir?

5

Hazırda postmünaqişə dövrü olmasına baxmayaraq, Soros fondu Ermənistandakı layihələrin həyata keçirilməsi üçün...



## Erməni tarixçi: "Qarabağ Azərbaycandır, ermənilərlə azərbaycanlılar eyni etnik kökə malikdirlər"

14

Tanınmış alim-tarixçi Filip Ekozyants "Caliber" analitik mərkəzinə müsahibəsi Qafqazın qədim tarixi, erməni xalqının...

# Brüsseldə təsbit olunmuş uğurlu sülh gündəliyi davam edir

## *Prezident İlham Əliyev dördtərəfli görüşdə qalib Azərbaycanın tələb və şərtlərini bildirdi*



Fevralın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Fransanın Avropa İttifaqına sədrliyi qismində prezident Emmanuel Makronun, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın iştirakı ilə 5 saata yaxın davam edən videoformatda görüş keçirildi ki, Brüsseldə Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə baş tutan üçtərəfli görüşü nəzərə almasaq, bu görüş Qərbin vasitəçiliyi ilə reallaşdırılan sayca ikinci olsa da, görüş əsnasında müzakirə edilən məsələlər və Şarl Mişel və Emmanuel Makronun birgə bəyanatı üzrə qəbul edilən sənəd mahiyyət və məzmun etibarilə daha öncəki görüşlərin ruhuna tamamilə uyğun idi. Bu görüşdə də, Brüssel sülh gündəliyinin davamı olaraq Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasına dair ətraflı müzakirələr olub. Görüş zamanı əvvəlcə Prezident Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə 2021-ci il dekabrın 14-də Brüsseldə keçirilmiş birgə görüşün əhəmiyyəti vurğulanıb. Sonra Brüssel sülh gündəliyinin davamı olaraq Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasına dair ətraflı müzakirələr keçirilib. Bu xüsusda, tədbirin əvvəlcədən müəyyən edilmiş gündəliyinə uyğun olaraq, iki ölkə arasında münasibətlərin müxtəlif aspektləri, o cümlədən humanitar məsələlər, etimad quruculuğu, Azərbaycanın üzləşdiyi mina problemi, kommunikasiyaların açılması, sərhədlərin delimitasiyası və demarkasiyası, sülh sazişi üzrə danışıqların başlanması kimi məsələlərə dair fikir mübadiləsi aparılıb. Eyni zamanda, Azərbaycan və Ermənistan arasında humanitar məsələlər, etimad quruculuğu, Azərbaycanın üzləşdiyi mina problemi, kommunikasiyaların açılması, sərhədlərin delimitasiyası və demarkasiyası, sülh sazişi üzrə danışıqların başlanması kimi məsələlərə dair fikir mübadiləsi aparılıb. O cümlədən, görüşdə UNESCO-nun Azərbaycana və Ermənistana missiyasının göndərilməsinə dair razılıq ifadə olunub.




### Azərbaycan öhdəliklərinə sadiqdir

Prezident İlham Əliyev bundan əvvəl keçirilən Soçi və Brüssel görüşlərində olduğu kimi məğlub və çarəsiz görünən Nikol Paşinyandan fərqli olaraq, qalib və mövqeyini daha da möhkəmləndirmiş lider kimi əsl həqiqətləri səsləndirdi. İlham Əliyev Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş şəxslərin taleyinin, kütləvi məzarlıqların yerinin müəyyənləşdirilməsi, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi sahəsində Azərbaycana beynəlxalq dəstəyin artırılması, dəmir yolu və avtomobil yolu ilə nəqliyyat dəhlizinin açılması məsələsinə xüsusi olaraq diqqət yetirib.

Dövlət başçısı Birinci Qarabağ müharibəsi zamanı 71-i uşaq, 267-si qadın və 326-sı ahıl olmaqla ümumilikdə 3890 Azərbaycan vətəndaşının itkin düşməsini qabardıb. Prezident İlham Əliyev qeyd edib ki, Vətən müharibəsinin başa çatmasından bəri mina partlayışı nəticəsində 36 nəfər Azərbaycan vətəndaşı həlak olub, 165 nəfər isə yaralanıb. Görüşdə, həmçinin UNESCO-nun Azərbaycana və Ermənistana missiyası məsələsi də müzakirə olunub və missiyanın hər iki ölkəyə göndərilməsinə dair razılıq ifadə edilib. Bir sözlə, budəfəki 4 tərəfli görüş də Prezident İlham Əliyevin növbəti diplomatik uğuru kimi qiymətləndirilməlidir. Hadisələrin gedişi bir daha göstərir ki, regionda Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasında dövlətlər arasında siyasi, iqtisadi, ekoloji, sosial və mədəni sahələrdə münaqişə dövrünün bütün mərhələlərində və təhlükəsizliyin həyata keçirilməsi tədbirlərində etimad quruculuğu məsələsi mühüm əhəmiyyət kəsb edir. Bu isə həm sistemli yanaşma, həm də beynəlxalq dəstək tələb edən bir məsələdir. Həll edilməmiş məsələlərin davamlı həllinə zəmin yaratmaq üçün etimad quruculuğu işində qarşılıqlı siyasi iradə olmalıdır. Azərbaycan tərəfi davamlı olaraq siyasi iradə və qətiyyət göstərir. Xüsusən də, Zəngəzur dəhlizinin açılması istiqamətində Azərbaycanın həyata keçirdiyi layihələr bunu bir daha təsdiqləyir. Ermənistanda da yaxşı anlayırlar ki, çıxış yolu Azərbaycanla hesablaşmaqdır. Əks təqdirdə, bu ölkə yenə də acınacaqlı duruma düşəcək.

### Fransa regionda yaranmış yeni reallığı qəbul edir

Qeyd edək ki, fevralın 4-də Fransa prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevin, Fransanın Avropa İttifaqına sədrliyi qismində prezident Emmanuel Makronun, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Ermənistan baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda keçirilən görüşdə Dağlıq Qarabağ münaqişəsi və hətta Qarabağ kimi ifadələr yer almadı. Digər bir önəmli məqam isə Fransa bu görüşdə ATƏT-in Minsk Qrupunun həmsədri kimi deyil, Avropa İttifaqına sədrliyi qəbul etmiş ölkə kimi iştirak edib. Şarl Mişel və Emmanuel Makronun birgə bəyanatında da Minsk Qrupuna istinad yer almadı.

Məsələ ilə bağlı Trend-in suallarını cavablandıran Prezident yanında Dövlət İdarəçilik Akademiyasında müşavir, Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov bildirib ki, dünən Brüssel görüşünün nəticələrinin alqışlanması və bu görüşün davamı olaraq Azərbaycan-Ermənistan arasında dialoqun davam etdirilməsinin vurğulanması, eyni zamanda, Soçi və Moskva görüşlərinin xatırlanması bir daha onu göstərir ki, danışıqlar Azərbaycanın istədiyi istiqamətdə davam etməkdədir.

”11 yanvar Moskva görüşündən sonra Azərbaycanın tələbi ondan ibarət idi ki, tez bir zamanda Zəngəzur dəhlizinin açılması məsələsi gündəlikdə olmalıdır, eyni zamanda, demarkasiya, delimitasiya prosesi və minalanmış ərazilərin xəritələri Azərbaycana verilməlidir. Minalanmış ərazilərin xəritələrinin bir qismi Azərbaycana verilsə də və eyni zamanda, Zəngəzur dəhlizi ilə bağlı razılıq əldə edilsə də, görünən odur ki, hələ də demarkasiya və delimitasiya prosesində Paşinyan qərar qəbul etməyib. Amma bu görüşün baş tutması və görüşdə Dağlıq Qarabağ, status və Minsk qrupu ifadəsindən istifadə edilməmisi Azərbaycanın uğurudur. 4 fevral görüşündə Ermənistanın heç bir maraq və istəyi Şarl Mişel və Fransa Prezindeti Makron tərəfindən dilə gətirilmədi. Bu, özü-özlüyündə Fransa prezidentinin də yeni reallığı qəbul etməsi ilə bağlıdır', - deyə o bildirib.

Ekspertin sözlərinə görə, son zamanlar Qərbin Azərbaycana artan maraqlarının şahidi oluruq. Dünən Avropa İttifaqı tərəfindən Azərbaycan Prezidentinin tələbinə uyğun olaraq 2 milyard avronun Azərbaycana verilməsi ilə bağlı qərarın qəbul edilməsi də Ermənistan tərəfindən təsadüfi deyil ki, çox böyük narahatlıqla qarşılandı.

”Çünki bundan əvvəl Azərbaycana 150 milyon avronun, Ermənistana isə 2 milyard 600 milyonun verilməsindən söhbət gedirdi. Lakin cənab Prezident İlham Əliyevin Şarl Mişel qarşısında bu məsələni prinsipial olaraq qaldırması dünən öz nəticəsini verdi. Hər bir halda, Avropa İttifaqı istər ABŞ, istərsə də Rusiya arasında artan geosiyasi çəkişmə kontekstində Azərbaycanın geosiyasi çəkisi artmaqdadır”, - deyə Z.Məmmədov əlavə edib.

Beləliklə, hadisələrin gedişatı onu deməyə əsas verir ki, Brüsseldə təsbit olunmuş uğurlu sülh gündəliyi davam edir. Bu gündəliyin əsasını Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması, Zəngəzur dəhlizinin açılması, itkin düşmüş şəxslərin taleyinin müəyyən edilməsi, minaların təmizlənməsində Azərbaycana yardım və etimad quruculuğu kimi məsələləri özündə ehtiva edir. Və budəfəki 4 tərəfli görüş də İlham Əliyevin növbəti diplomatik uğuru kimi qiymətləndirilməlidir. Ermənistanda da yaxşı anlayırlar ki, çıxış yolu Azərbaycanla hesablaşmaqdır. Əks təqdirdə, bu ölkə yenə də acınacaqlı duruma düşəcək.

**RƏFİQƏ KAMALQIZI**




# “Qarabağ 32 ildən sonra əsarətdən xilas edildi”

*Türkiyənin "A Haber" telekanalı Qarabağın işğaldan qurtuluşu mövzusunda xüsusi reportaj yayıb*










**Milli kimliyimizin təsdiqi, qürurumuzun yüksəlişi olan Qarabağ Zəfəri qardaş Türkiyənin aparıcı kütləvi informasiya vasitələrinin ən aktual mövzusu olaraq qalmaqdadır. Belə ki, fevralın 6-da ”A Haber” telekanalında yayımlanan ”Qarabağ 32 ildən sonra əsarətdən xilas edildi” sərlövhəli xüsusi reportaj da bu mövzuya həsr olunub.**

Döyüş səhnələri də daxil olmaqla real kadrlar əsasında hazırlanmış reportajda Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun qazandığı şərəfli Qələbənin təfərrüatlarından bəhs olunub. Reportajda 44 günlük Vətən müharibəsində Prezident İlham Əliyevin çıxışlarından sitatlar verilib. ”Qarabağ Azərbaycandır!” şüarı əsasında bir daha türkdilli ictimaiyyətin diqqətinə çatdırılıb ki, Azərbaycanı qətiyyətli qələbəyə aparan yol möhkəm siyasi iradə, qətiyyətli mübarizə yolu, xalqın birliyi və Türkiyənin siyasi-mənəvi dəstəyidir.

Böyük qələbədən sonra Bakıda keçirilən hərbi parad və bu yüksək tribunada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışından məqamlar da reportajda əskini tapıb.

## Şarl Mişel: ”Azərbaycanın 8 erməni hərbçini Ermənistana təhvil verməsi müsbət irəliləyişin daha bir göstəricisidir”

Azərbaycanın 8 erməni hərbçini Ermənistana təhvil verməsi Azərbaycan Prezidenti İlham Əliyev, Fransa Prezidenti Emmanuel Makron və Ermənistan baş naziri Nikol Paşinyan arasında keçirilən görüşdən sonra müsbət irəliləyişlərinin daha bir göstəricisidir.

AZƏRTAC xəbər verir ki, bu barədə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel özünün tviter hesabında paylaşımında bildirib. Şarl Mişel Avropa İttifaqının regionda sabitliyi və rifahı dəstəklədiyini də vurğulayıb.

## İqor Dolqov: “Prezident İlham Əliyevin Ukraynaya səfəri ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynayacaq”



Azərbaycan ilə Ukrayna arasında diplomatik əlaqələrin 30-cu ildönümü ərəfəsində Prezident İlham Əliyevin Ukraynaya səfəri ölkələrimiz arasında münasibətlərin inkişafında və daha da genişlənməsində çox mühüm rol oynayacaq. Bu sözləri AZƏRTAC-a müsahibəsində Ukraynanın Gürcüstandakı səfir İqor Dolqov söyləyib.

Onun sözlərinə görə, Azərbaycan ilə Ukrayna arasında dostluq əlaqələrinin çox qədim tarixi var. ”Bu gün münasibətlərimiz yeni müstəvidə inkişaf edərək daha da genişlənib, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Bu baxımdan da qətiyyətlə deyə bilərəm ki, Prezident İlham Əliyevin bu səfəri əməkdaşlığımızın daha da dərinləşməsində və möhkəmlənməsində olduqca mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Prezidentinin Ukraynaya səfəri zamanı Prezident Volodimir Zelenski ilə birgə apardığı danışıqlar, imzalanmış sənədlər bizim üçün geniş imkanlar açır. Düşünürəm ki, hər iki tərəf bundan səmərəli istifadə edəcək və ölkələrimiz arasında əməkdaşlıq əlaqələri bundan sonra daha da möhkəmlənəcək və inkişaf edəcək”, - deyə İqor Dolqov vurğulayıb.

## Aleksandr Jukovski: ”Cənubi Qafqaz regionu Avropa İttifaqının maraqları zonasındadır”



2022-ci il fevralın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Fransa Prezidenti Emmanuel Makronun, Avropa İttifaqı Şurasının sədri Şarl Mişelin və Ermənistanın Baş naziri Nikol Paşinyanın iştirakı ilə keçirilən videomüzakirələr Avropa ictimaiyyətinin Cənubi Qafqaz regionuna marağının bir göstəricisi kimi qiymətləndirilməlidir.

SİA xəbər verir ki, bu barədə Caliber.Az-a şərhində tanınmış sosioloq, ictimai xadim Aleksandr Jukovski bildirib. Onun sözlərinə görə, Mişel və Makronun regionda gərginliyin azaldılması və etimadın yaradılmasına yönəlmiş səyləri dəstəkləməyə sadiqliklərini təsdiqləmələri Avropa ictimaiyyətinin daima Cənubi Qafqaz regionunda vəziyyəti diqqətlə izlədiyini göstərir.

”Eyni zamanda, bu, həm də Avropanın aparıcı ölkələrindən biri olan Fransanın Bakı ilə İrəvan arasında normal siyasi dialoqun qurulması prosesinə töhfə verməyə hazır olmasının göstəricisidir. Burada regionun əsas ölkəsi və Avropa İttifaqının enerji təhlükəsizliyinin təminatçısı kimi Azərbaycanın Avropa üçün əhəmiyyətini qeyd etmək yerinə düşər, onunla əməkdaşlıq Avropa dövlətlərinin və beynəlxalq strukturlarının siyasətinin prioritet istiqamətlərindəndir. Məsələn, UNESCO nümayəndələrinin Azərbaycanın ayrılmaz hissəsi kimi Qarabağa Azərbaycan ərazisindən keçməklə səfər etməsi ölkənin diplomatik uğuru, dövlətin ərazi bütövlüyünün tanınmasıdır ki, bu da öz növbəsində dərin sosial komponentə malikdir.

Eyni zamanda, Azərbaycan, Ermənistan, Fransa, Aİ liderlərinin görüşü digər eyni dərəcədə vacib hadisələrlə dinamika baxımından daha yaxşı başa düşüləndir. Hesab edirəm ki, burada Mərkəzi Asiya ölkələrinin başçılarının Çin lideri ilə görüşünü xatırlatmaq yerinə düşər”, - Jukovski bildirib.

Onun sözlərinə görə, Avropa sənayesi onun inkişafı üçün yeni əlaqələr və resurslara həyati maraq kimi baxır. Müstəqil respublikalar belə imkanlar verə bilər.

”Avropa təşkilatları, o cümlədən UNESCO inteqrasiya proseslərinin potensial iştirakçılarının mümkün irrasional və kortəbii təzahürlərini yumşaldacaq bürokratik prosedurlar üzrə zəngin təcrübəyə malikdir. Onların milli-mədəni adət-ənənələrin tənzimlənməsində və qorunub saxlanmasında iştirakının region üçün çox faydalı olacağı şübhəsizdir. Məhz buna görə də Aİ nümayəndələri ilə Ermənistan və Azərbaycan liderləri arasında virtual formatda son müzakirələr Qərblə Şərq arasında aydın dialoqa nail olmaq yolunda növbəti addım kimi qiymətləndirilməlidir”, - rusiyalı sosioloq bildirib.

*Tərcümə - Elçin Bayramlı*

ŞƏRH

# Şuşa Bəyannaməsi - əməkdaşlıqdan müttəfiqliyə doğru atılan böyük addım

15 iyin 2021-ci il Türkiyə-Azərbaycan, "Bir millət, iki dövlət"i rəsmiləşdirən, ən əsası isə, tariximizdə ilk dəfə olaraq Azərbaycan lideri xarici dövlətin başçısını Qarabağda - Azərbaycannı mədəniyyət beşiyi olan Şuşa şəhərində qarşıladı. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannamənin imzalanması mühüm tarixi hadisə kimi yaddaşlarımıza həkk olundu. Bəli, Müttəfiqlik haqqında Bəyannamə təqdimatı hər şeyi deyir. Bu tarixi sənədin imzalanmasından sonra bütövləşmişik, bir dövlətə çevrilmişik. Şuşa Bəyannaməsi qardaşlığımızın rəmzidir. Şuşa Bəyannaməsi Türkiyə ilə Azərbaycanın birgə maraqlarının qorunması üçün hər iki ölkənin bütün imkanlarından istifadə etməyə imkan verən rəsmi sənəddir. İstər Türkiyəyə qarşı, istərsə də Azərbaycana qarşı üçüncü ölkə və yaxud ölkələr tərəfindən təhdidlər və yaxud birbaşa hücum olarsa iki ölkənin bütün imkanları səfərbər ediləcək və işğalçıya qarşı birgə mübarizə aparacaqlar.



**_Rəcəb Tayyib Ərdoğan:_**
**_"Şuşa Bəyannaməsi ilə əlaqələrimizdə yeni bir dönəm başlatdıq"_**

**_Prezident İlham Əliyev:_**
**_"Şuşa Bəyannaməsi ilə Türkiyə-Azərbaycan əlaqələri rəsmən müttəfiqlik səviyyəsinə qalxıb"_**

### Azərbaycan Prezidenti: "Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir"

Şuşa Bəyannaməsinin məhz Azərbaycan xalqının Qurtuluş günü - 15 iyun tarixinə və Qarabağ, Zəngəzur üçün çox vacib sayılan Qars müqaviləsinin 100-cü ildönümünə təsadüf etməsinin xüsusi rəmzi mənası var. Təsadüfi deyil ki, Şuşada Türkiyə lideri ilə Bəyannamə imzalayarkən Azərbaycanın dövlət başçısı hər kəsin yadına Qars müqaviləsini saldı. O qeyd etdi: "Tarixi Qars müqaviləsi düz yüz il əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir. Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlıq, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan, dünya üçün önəmi göstərilir. Hər bir məsələ çox böyük önəm daşıyır".

Təbii ki, Prezident İlham Əliyevin Qars müqaviləsinə və 100 il bundan əvvəl baş verənlərə istinad etməsi təsadüfi deyil. Çünki 100 il bundan əvvəl baş tutan proseslərə oxşar hallar, indi də təkrarlanmaqdadır. Sadəcə bir fərq ilə. Əgər o zaman hadisələrin nəticəsi Ermənistanın və onun havadarlarının xeyirinə başa çatmışdısa, bu gün Cənubi Qafqazda yaranmış yeni reallıq Azərbaycan dövlətinin və xalqının birbaşa qalibiyyəti deməkdir. Ölkəmizin başçısının apardığı uzaqgörən siyasət nəticəsində xalqımız düz 100 il sonra tarixi ədaləti bərpa etdi. Şuşa Bəyannaməsinin önəmi həm də ondan ibarətdir ki, bu sənəd heç bir ölkəyə qarşı deyil, əksinə regionda daimi sülhün, sabitliyin bərqərar olmasına yönəldilib. Sənəddə də göstərildiyi kimi, yalnız hər iki ölkəyə qarşı xaricdən müdaxilələr olacağı təqdirdə birgə əməliyyatlar keçiriləcək, bir-birinə hər cür dəstək verəcəklər. Bu, həm Türkiyənin, həm də Azərbaycanın maraqlarına uyğundur. Şuşa Bəyannaməsinin imzalanmasından keçən müddət ərzində Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi üçün kifayət qədər işlər görülüb. İqtisadi və nəqliyyat əlaqələrinin bərpası ilə bağlı meqalayihələrə start verilib. Region dövlətləri arasında münasibətlərin normallaşdırılması istiqamətində Türkiyə və Azərbaycanın birgə təşəbbüsləri deyilənlərə ən parlaq nümunədir. Qarabağda Türkiyə-Rusiya Birgə Mərkəzinin fəaliyyətə başlaması da bu qəbildəndir. Rusiyanın da bu prosesə daxil edilməsi isə regionda sülhün bərqərar olunmasının təsir mexanizmini artırmağa hesablanıb.

Bəli, Şuşa Bəyannaməsinin sülhyönümlü olması mübaliğəsizdir. İki qardaş ölkə arasında müttəfiqliyin bu sənəd vasitəsilə bir daha təsdiqlənməsi qonşularının da xeyrinədir. Çünki, nə Türkiyə, nə də Azərbaycan təcavüzkardır, hər iki ölkə BMT tərəfindən tanınmış və bütün beynəlxalq sənədlərdə təsdiq olunmuş sərhədlərinə sahib olmaq və qonşularının da ərazi bütövlüyünə hörmətlə yanaşmaq, mehriban qonşuluq şəraitində yaşamaq istəyindədir. 30 il idi ki, beynəlxalq güclər Cənubi Qafqaz regionunu özlərinin haqq-hesab poliqonuna çevirmişdilər. Məhz Türkiyə ilə Azərbaycanın birgə səyi ilə regionda faşizmin kökü kəsildi, uzun illər erməniləri də normal yaşayışdan məhrum etmiş rejim tarixin arxivinə atıldı. Sülhə məcburetmə nümunəsi Azərbaycan və Ermənistan arasında 44 günlük müharibədə özünü tam olaraq təsdiq etdi. Azərbaycan Ermənistandakı faşist rejimi məğlub etmədi, həm də regiona uzunmüddətli sülh gətirdi.

### Türkiyə Prezidenti: "Şuşa Bəyannaməsi ilə əlaqələrimizdə yeni bir dönəm başlatdıq"

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, Türkiyə və Azərbaycan arasında imzalanmış Şuşa Bəyannaməsi ilə iki ölkə arasındakı əlaqələrdə yeni dönəm başlayıb: "Qarabağa yenidən həyat verməklə yanaşı, azərbaycanlı qardaşlarımızın bir daha bu cür fəlakətlər yaşamaması üçün bir millət, iki dövlət ruhuna uyğun şəkildə tədbirlərimizi alırıq. Qardaşım Əliyevlə birlikdə imzaladığımız və dünyaya elan etdiyimiz Şuşa Bəyannaməsi ilə əlaqələrimizdə yeni bir dönəm başlatdıq. Bu bəyannamə çərçivəsində bir çox anlaşmanı çox yaxın zamanda Türkiyə və Azərbaycan olaraq imza altına alacaq, beləcə qardaşlığımızın hüquqi təməlini daha da gücləndirəcəyik. Şuşa Baş Konsulluğumuzun ən qısa müddətdə açılmasından Zəngəzur dəhlizinin bir an öncə işləməsinə qədər gündəmimizdəki hər bir başlığı qərarlılıqla və sürətlə həyata keçirəcəyik. Önümüzdəki aylarda ölkəmizdə gerçəkləşdirəcəyimiz Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasında da bu xüsusla əlaqəli konkret addımların çoxunu atmağı planlaşdırırıq".

Qeyd edək ki, Şuşa Bəyannaməsinin imzalanması iki ölkə arasındakı əlaqələri tarixi maksimuma çatdıraraq bütün dünyaya iki ölkənin qardaşlığı ilə bağlı mesaj verilməsi baxımından da əlamətdar oldu. Bununla onsuzda ortada olan bir reallıq bir daha açıq şəkildə bütün dünyanın nəzərinə çatdırıldı: Türkiyə 44 günlük müharibə dövründə olduğu kimi sonrasında da, yəni Qarabağın dirçəldilməsi, bölgədə bütün kommunikasiyaların açılması və s. məsələlərdə də Azərbaycanı birmənalı olaraq dəstəkləyir və bundan sonra da qeydşərtsiz dəstəkləməyə davam edəcək. Artıq reallıqla barışmaq və gələcəyə baxmaq lazımdır.

Şuşa Bəyannaməsi bütün dünyanın barışmalı olduğu tarixi gerçəklikdir.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış Şuşa Bəyannaməsi bütün dünyanın barışmalı olduğu tarixi gerçəklikdir. Hər iki ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinə, eləcə də müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərinin qarşılıqlı şəkildə əlaqələndirilməsinə istiqamətlənən saziş Bakı və Ankaranın başçılığı altında yeni regional geosiyasi konfiqurasiyanın qurulmasının başlanğıcıdır. Bu, regionda 200 ilə yaxın davam edən geosiyasi konfiqurasiyaların dağıdılması və bundan sonra Azərbaycan-Türkiyə tandeminin rəhbərliyi altında davam edəcək yeni regional düzənin başlanğıcı deməkdir. Çünki bu gün Azərbaycanla Türkiyə arasındakı münasibətlərin dünyada analoqu yoxdur. 44 günlük Vətən müharibəsində Türkiyənin Azərbaycana qətiyyətli siyasi və mənəvi dəstəyi və qazanılan zəfər regionda yeni reallıqlar yaratdı. Bütün dünya bir daha Azərbaycan-Türkiyə qardaşlığının təntənəsinin şahidi oldu. Bu baxımdan Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının və birliyinin yeni təsdiqi sayılan müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi hər iki ölkə ilə yanaşı, region və dünya üçün də son dərəcə böyük əhəmiyyət kəsb edir. Həmçinin, imzalanmış Müttəfiqlik Bəyannaməsi iki ölkə arasında münasibətlərin ən yüksək zirvəyə çatmasının göstəricisidir. Eyni zamanda, Şuşa Bəyannaməsi Ermənistana və onun havadarlarına da mesajdır. Türk dünyasının iqtisadi, siyasi və mədəni birliyi bu bəyannamə ilə daha da sarsılmaz olacaq. Türkiyə və Azərbaycan arasındakı imzalanmış Şuşa Bəyannaməsi ilə təkcə iki qardaş ölkəni deyil, bütün türk dünyasını, eləcə də Şərqlə Qərbi birləşdirəcək Zəngəzur dəhlizinin açılması qətiləşdi və bu proses sürətləndiriləcək. Müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamədə bu məsələnin əks olunması böyük məna daşıyır. Regionumuz bu iki türk dövlətinin təşəbbüsləri ilə inkişaf edəcək. Bu isə o deməkdir ki, gələcəkdə bölgədə süni münaqişələrin yaradılması və ya alovlandırılması da daha mümkün olmayacaq. Şuşa Bəyannaməsi bölgədə sülh, sabitlik və firavanlıq üçün güclü bir çağırışdır. Və Şuşa Bəyannaməsi hər şeydən öncə iki qardaş ölkə arasında münasibətlərin gələcəyini müəyyən edən yol xəritəsi kimi də tarixə düşəcək. Azərbaycan Prezidenti cənab İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan xalqlarımızın milli maraqlarını müdafiə edərək, onun mənafelərinin təmin olunması istiqamətində müstəqil xarici siyasət yürüdən iki böyük liderdir. Azərbaycanla Türkiyənin dünyada gedən proseslər haqqında mövqeləri üst-üstə düşür, bundan sonra da bu iki liderin rəhbərliyi altında iki dövlət BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birilərinə qarşılıqlı dəstək verəcəklər. Bu Bəyannamə Azərbaycan və Türkiyə dövlətləri arasında bütün sahələrdə inteqrasiyanın nümunəsidir. Ən əsası, bu Ermənistanda revanşizmin və Qars müqaviləsinin ləğvi barədə iddiaların səslləndirildiyi, bəzi dövlətlərin regionda yenidən qarışıqlıq yaratmaq istədikləri bir zamanda Şuşa Bəyannaməsinin imzalanması düşmənlərimizə göz dağı verməklə yanaşı həm də Azərbaycanın gücünün, qüdrətinin nə qədər böyük olduğunu bir daha göstərdi.

### "Güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır"

Bir sözlə, bu gün Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın dediyi kimi: "Hər ötən gün siyasi, hərbi, iqtisadi, mədəni, ticari - bütün sahələrdə bu əlaqə artaraq davam etməkdədir. Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır. Dünya birliyində də, şübhəsiz ki, bu iki ölkənin yeri çox önəmli olmaqdadır və olacaqdır".

Bəli, bu gün Türkiyə-Azərbaycan, "Bir millət, iki dövlət"i rəsmiləşdirən Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi - Azərbaycan-Türkiyə "Bir millət, iki dövlətdir!".Dövlət başçımızın dediyi kimi: "Şuşa Bəyannaməsi ilə Türkiyə-Azərbaycan əlaqələri rəsmən müttəfiqlik səviyyəsinə qalxıb".Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında Şuşa Bəyannaməsini imzalamaqla hər zaman Azərbaycanın yanında olacağını rəsmən elan etdilər. Bu, tarixi hadisədir və xalqlarımızı qürurlandırır, gücümüzü artırır, birliyimizi möhkəmləndirir və dövlətlərimizi daha böyük uğura aparır.

**R. HÜSEYNOVA**

ANALİTİKA + AKTUAL

# Aİ-nin Azərbaycana maliyyə paketi ayırması erməniləri özündən çıxarıb

*Gülünc və istehzadoğurucu iddiaları ilə özləri-özlərinə təskinlik verirlər*



**Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzu və regional kontekstdəki əhəmiyyəti getgedə daha da artır və söz yox ki, bu reallıq Avropa İttifaqının (Aİ) da diqqətindən yayınmır. Yaxınlarda Aİnin ölkəmizə maliyyə paketi ayırması faktı da bu və bu kimi digər amilləri özündə ehtiva etməkdədir.**

Yeri gəlmişkən, artıq bu fakt Ermənistanda kəskin narazılıq və isterika ilə qarşılanıb. Belə ki, prosesdə Fransa prezidenti Makronun Aİ-yə sədrlik edən ölkənin rəhbəri qismində iştirak etməsi İrəvandakı ictimai-siyasi dairələri özlərindən çıxarıb.

### Erməni ictimai-siyasi rəyinin gülünc iddiaları

Daha bir maraqlı məqam isə budur ki, erməni sosial şəbəkələrində və KİV-lərində mövcud reallığın həzm edilməməsi açıq-aşkar özünü göstərir. Gülünc və istehza doğurucu iddialara nəzər salaq: "Avropa Azərbaycan qazına görə həmin vəsaiti ayırıb", "Avropa Azərbaycanın Qarabağa "status" verməsinin əvəzində maliyyə paketi təyin edib", "Əliyev Rusiyanı aldatdı və Qərbə tərəf keçdi, nəticədə Rusiya bizə kömək edəcək" və s.

Bütün bu hipotezlər ondan ibarətdir ki, Ermənistan Aİ-nin Azərbaycana təqdim etdiyi paketin əsas hədəflərini həqiqətən də həzm edə bilmir. Özü də həmin paket Azərbaycana qazın qiymətindən asılı olmayaraq verilir. Halbuki, Ermənistan həqiqətən də hadisələrin belə dəyişəcəyini gözləmirdi. Məhz bu reallıq erməni ekspert cəmiyyətinin başını sözün həqiqi mənasında dolaşığa salıb.

Ermənistanın ictimai-siyasi rəyi bir gerçəkliyi unudur ki, artıq real və əməli işlər görməyin vaxtıdır, boş-boş xülyalara dalaraq utopik fəzriyələr irəli sürmək isə çoxdan keçmişdə qalıb...

### Aİ Qarabağ iqtisadi regionunun yalnız Azərbaycana deyil, Avropaya da verəcəyi töhfələrini yaxşı dərk edir

Aİ Azərbaycanla əməkdaşlığını ona görə möhkəmləndirmir ki, bu amili yalnız öz maraqlarına görə istifadə etsin, Aİ istəyir ki, Azərbaycan Avropa və Asiyanın kəsişən məxrəcində mühüm yer tutduğu, həmçinin Avropa məkanına daha sıx bağlı olması üçün bütövlükdə enerji təhlükəsizliyinin lokomotivi rolunu əlində cəmləşdirsin. Dünyada baş verən qlobal siyasi dəyişikliklər fonunda Aİ-nin güclü iqtisadiyyata malik perspektivli ölkələrlə əməkdaşlıq etməsindən başqa yolu da yoxdur və bu ölkələr sırasında liderlik edən dövlət məhz Azərbaycandır.

Başqa tərəfdən, Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsindən sonra həmin torpaqların çoxşaxəli bərpası və inkişafı da Avropanın diqqəti mərkəzindədir və gələcəkdə Qarabağ iqtisadi regionunun yalnız Azərbaycana deyil, Avropaya da verəcəyi töhfələrini yaxşı dərk edir. Aİ dərk edir və bilir ki, 30 il ərzində bu torpaqlar talançılıqlara, məhvə məruz qalıb və bütün bunların kökündə dayanan baiskar tərəf Ermənistandır.

### Reallıqla təskinlik arasındakı fərqin də necə olduğunu Azərbaycan əməli işləri ilə isbata yetirib

Bu baxımdan, Ermənistandan fərqli olaraq Azərbaycanın azad etdiyi torpaqlarda qısa müddət ərzində həyata keçirdiyi nəhəng miqyaslı işlər sübut edir ki, Qarabağ regionu Azərbaycanın əzəli, əbədi ayrılmaz hissəsidir və oradakı inkişaf, tərəqqi faktorları həm də Avropa məkanının gələcək əməkdaşlıq, inkişaf perspekktivlərinə geniş şəraitlər, imkanlar yaradır. Hər halda, bunu Ermənistan cəmiyyəti də anlayır. Sadəcə, Aİ-nin Azərbaycana ayırdığı maliyyə vəsaitindən möhkəm narahatlıq keçirməklə son ümidlərinin də söndüyünü dərk edir, ona görə də yenidən ənənəvi utopik xəyallarına dalmaqla özünə təskinliklər verir. Hər halda reallıqla təskinlik arasındakı fərqin də necə olduğunu Azərbaycan əməli işləri ilə isbata yetirib.

*Rövşən RƏSULOV*

## Xan Şuşinskinin qızı: "Xalqımızın rəşadətli igid oğullarına təşəkkür edirəm"




"Azərbaycanın incisi, Qarabağın zümrüd tacı Şuşa şəhərimiz işğaldan azad olunub". Bunu SİA-ya dahi muğam ifaçısı Xan Şuşinskinin qızı Bəyimxanım Verdiyeva deyib. Onun sözlərinə görə, Prezidentin sərəncamı ilə bu il "Şuşa ili" elan olunub: "Mədəniyyət Nazirliyinin Milli kitabxana ilə birgə nəşr etdiyi "Şuşa-Azərbaycanın mədəniyyət paytaxtı. Biblioqrafiya" və "Xan Şuşinski. Biblioqrafiya" kitablarının təqdimat mərasimi ilə bağlı tədbir "Şuşa ili" çərçivəsində ilk tədbirdir. İki möhtəşəm kitabın təqdimat mərasiminə yığışmışıq. Bu sevinci bizə bəxş etdiyi üçün Ali Baş Komandanımız başda olmaqla, xalqımızın rəşadətli igid oğullarına təşəkkür edirəm. Qazilərimizə can sağlığı arzu edirəm. Şəhidlərimizin ruhu qarşısında baş əyirəm".

*Ayşən Vəli*

## Soros fondu müharibədən sonrakı Ermənistanda kimləri maliyyələşdirir?



**Hazırda postmünaqişə dövrü olmasına baxmayaraq, Soros fondu Ermənistandakı layihələrin həyata keçirilməsi üçün vəsait xərcləməkdə davam edir. Məsələn, 2021-ci il ərzində bu fondun ayırdığı 1,2 milyon dollar vəsait Ermənistanda müxtəlif şəxslərə qrant şəklində paylanıb.**

Bu fikirlər "İravunk" nəşrində dərc olunan eyniadlı analitik məqalədə yer alıb.

Bildirilib ki, fond bu dəfə fiziki şəxslərə qrant ayırmayıb. Redaksiyanın apardığı araşdırmalardan aydın olur ki, bu dəfə qrant ayrılanlardan biri "İnkişaf və hüquq müdafiəsi" fondunun həmtəsisçilərindən biri, parlamentdəki "Vətəndaş müqaviləsi" hakim fraksiyasına daxil olan Harusyak Culxakyandır. O da bəlli olur ki, sifətinə Mona Lizanın mübhəm təbəssümü hopmuş bu xanım deputat Soros fondundan 24,5 min, ona yaxın olan Jenya Mailyanın "Real adamlar və real dünya"sı 24 min 668, ona heç də kənar adam sayılmayan Vayolet Çopunyanın "Hüquq İnkişafı Mərkəzi" 37 min 750, hüquq müdafiəçilərini koordinasiya edən Zarui Hovhanesyan 28 min, Daniel İonasyanın "Məlumatlı Vətəndaşlar İttifaqı" 50 min, Lusine Vasilyanın "Mandat"ı 70 min, "Diskriminasiyaya qarşı və birlik naminə"si 43 min 100, Edik Bağdasaryanın "Araşdırmaçı jurnalistlər"i 90 min dollar və "soros dəyərləri"nin digər keşikçiləri ümumilikdə 1,2 milyon dollar qrant alıblar.

Yazıda diqqətçəkən məqam odur ki, qrant alanların arasında dövlət məmurları, iqtidar deputatları, hətta səfirlər də var. Bu şəxslərin hamısı 2021-ci il parlament seçkilərində bu və yaxud digər dərəcədə kifayət qədər fəallıqları ilə seçiliblər.

Məqalə bu sualla tamamlanır: "Bütün bunların demokratiya ilə nə əlaqəsi var və nəyə görə bu hallar öz adı ilə - korrupsiya adlandırılmır". Bütün bunlar Ermənistanda bir sıra dairələrin hələ də Sorosun təsiri altında olduğunu isbatlayır. (AZƏRTAC)

## "Dünya Xocalı faciəsinə laqeyd olmamalıdır"

"Xocalı faciəsi Azərbaycan xalqına qarşı törədilmiş tarixdəki bütün cinayətlərin ən dəhşətlisidir. Bu cinayət hadisəsi özünün mahiyyətinə görə vaxtilə İkinci Dünya Müharibəsində alman faşistlərinin Xatın şəhərində törətdikləri qətliam ilə 60-70-ci illərdə yunanların Kiprdə həyata keçirdikləri soyqırım hadisəsi ilə yanaşı dayanır". Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert Aydın Quliyev deyib.

Onun sözlərinə görə, Xocalı soyqırımı həm Azərbaycan xalqının məruz qaldığı faciələri nümayiş etdirmək baxımından, həm erməni faşizminin əsas üzünü bütün dünyaya göstərilməsi baxımından, həm də indiki və gələcək Azərbaycan və dünya nəsillərinin öyrənməsi baxımından çox ciddi faktdır: "Xocalı faciəsinin izləri hələ də yaşayır. Xocalıda itkin düşmüş insanlar haqqında tam dəqiq şəkildə məlumat əldə olunmayıb və həmin insanların taleyi haqqında konkretlik yoxdur. Xocalı faciəsinin səbəbkarları lazımi cəzanı almayıb. Dünya bu hadisəyə laqeyd olmamalı və unutmamalıdır.

Xocalı faciəsi ilə bağlı iki məqam olduqca önəmlidir. Birincisi, Xocalı hadisələrinin daxili, siyasi araşdırmalarına o qədər də vaxt sərf etməyə ehtiyac yoxdur. Çünki Xocalı faciəsinin köklərini daxili amillərlə əlaqələndirdikcə və bununla bağlı araşdırmaları dərinləşdirdikcə istər-istəməz belə bir rəy formalaşır ki, Xocalı faciəsinin törədilməsinin ən böyük müqəssirləri Azərbaycanın öz daxilində yaşayan ermənilər olub. Məsələnin mahiyyəti tamamilə fərqlidir. Çünki Xocalı faciəsinin bütün müqəssirləri tam şəkildə Azərbaycandakı kənar faktorlarla bağlıdır. Ona görə də Xocalı hadisələrinin daxili köklərinin araşdırılmasından daha çox biz onun beynəlxalq miqyasda siyasi cəhətdən tanıdılması və hüquqi qiymət almasına nail olmalıyıq.

Bu gün Xocalı faciəsinin dünyada tanıdılması istiqamətində müəyyən addımlar atılır. Artıq dünyanın bir neçə ölkəsi, ABŞ-ın bir neçə ştatı Xocalı soyqırımını siyasi olaraq genosid akt kimi qəbul edib. Sözsüz ki, bunlar uğurlu nəticələrdir. Amma bütün dünyanın Xocalını siyasi cəhətdən genosid faktı kimi tanıması istiqamətində işləri davam etdirməliyik. Eyni zamanda Beynəlxalq Ədalət və Cinayət məhkəmələrində Xocalı ilə bağlı ayrıca proseslərin başladılmasına nail olmalıyıq. Necə ki, Serbiyada albanlara qarşı törədilən cinayətlər Beynəlxalq Cinayət məhkəməsində, Haaqa tribunalında xüsusi araşdırma preqmenti olub, eynilə də Xocalı faciəsi Beynəlxalq Cinayət məhkəməsində ayrıca araşdırma preqmentinə və prosesinə çevrilməlidir".

*Arzu Qurbanzadə*

# Gənclər üçün KÖNÜLLÜLÜK NƏDİR?

***Son zamanlarda ölkəmizdə könüllülük hər sahədə geniş vüsət alıb. Bu gün ölkəmizdə könüllü fəaliyyətinin təşkilini və həyata keçirilməsini təmin edən bir sıra dövlət orqanları, qeyri-hökumət təşkilatları, yerli özünüidarə orqanları var. Könüllülük indiki sosial problemləri həll etmək üçün, yaşadığımız cəmiyyət üçün çox faydalıdır. Azərbaycan gəncləri bu gün bir sıra qurumlarda, QHT-lərdə könüllü olaraq öz fəaliyyətini davam etdirirlər və bir sıra sahələr üzrə təcrübə qazanırlar. Bəs, könüllülər bu haqda nə düşünürlər?***



*SİA mövzu ilə bağlı könüllülər arasında sorğu keçirib:*

**"Davam" Gənclər Hərəkatının üzvü Əhmədağa Babaşov:** "Hər kəsə məlumdur ki, ölkəmizdə könüllülük hərəkatı geniş vüsət alıb. Dövlət tərəfindən gənclərin inkişafı üçün hər cür şərait yaradılıb. Bu, cənab Prezidentimiz İlham Əliyevin gənclərə olan inam və güvəninin göstəricisidir. Biz də Azərbaycan gəncləri olaraq daim ölkəmizi beynəlxalq inteqrasiya prosesində layiqincə təmsil edirik. Öz növbəmdə mən də artıq 1 ildən çoxdur ki, müxtəlif qurumlarda könüllü kimi fəaliyyət göstərirəm və düşünürəm ki, könüllülük fəaliyyəti hər bir gənc üçün yeni imkanlardan istifadə etmək üçün önəmli fürsətdir. "Davam" Gənclər Hərəkatının üzvü olaraq davamçı bir gənc kimi hər daim inkişafyönümlü layihələrin iştirakçısı olub bir kadr kimi formalaşma prosesində iştirak edirəm və gəncləri də bu prosesdə aktiv olmağa çağırıram".



**DOST Agentliyinin könüllüsü Zərintac Maisqızı:** "Tələbəlik həyatımı sadəcə dərsə yox aktiv fəaliyyətə də sərf etdim. Çünki, sadəcə dərslər insana kifayət etmir. Dünyagörüşün artımı, təcrübə üçün aktivlik, könüllülük hər bir gəncə böyük töhfələr verir. Mən ixtisasımla yanaşı, sosial sahələrdə də könüllü olmuşam. DOST Agentliyində, Bir könüllü, məktəblinin dostu, xeyli sayda tədbir və seminarlarda iştirak etmişəm. Könüllülük fəaliyyətim mənim ən gözəl vaxtlarım olub. Unudulmaz, gözəl xatirələr toplamışam. Yeni dostlar, yeni təcrübələr, fərqli mühitlər, əyləncəli və maariflendirici mühitlər əldə etdim. Bütün bunlara görə özümü çox şanslı hiss edirəm. Dost Agentliyində işimə görə yüksək dərəcəli sertifikat aldım. "Şərq" qəzetində də könüllü müxbir kimi sertifikata layiq görüldüm.



Könüllülük dönəmlərimdə qonorarlar, maaş, çoxlu sayda sertifikat qazanmışam. Çox şey danışa bilərəm. O qədər gözəl, maraqlı bol xatirələr var ki. Qazandıqlarıma hər baxanda, hər düşünəndə qürur hissi yaşayıram. Bütün gənclərə tövsiyəm könüllük deyəndə o mənə nə verəcək ki düşünməsinlər. Könüllülük gənclik üçün hər şey deməkdir, bizə təcrübə, bilik və yeni tanışlıqlar qazandırır".

**Dövlət Gömrük Komitəsinin könüllüsü Sona Zeynallı:** "İlk təcrübəm 2 ay müddətində "ASAN" Xidmətdə olmuşdu. Vətəndaşlarla işləyir, əməkdaşlara vətəndaşların problemlərini həll etməkdə köməklik göstərirdik. Bunun nəticəsində ünsiyyət qabiliyyətimiz, analitik bacarıqlarımız daha da inkişaf etdi. Könüllülük fəaliyyəti həmçinin bizim sosiallaşmağımızda da böyük rol oynayır. Yeni insanlar tanıyırıq, ətrafımız genişlənir. Digər könüllülük fəaliyyətim isə Bakı Baş Gömrük İdarəsində olmuşdu. Gömrükçülərə ləyaqətli vəzifələrini yerinə yetirməklərində kömək etdik, iş rejimi ilə tanış olduq və yeni insanlar tanıdıq. Ümumi olaraq deyə bilərəm ki, könüllülük fəaliyyəti bizim şəxsiyyət kimi formalaşmağımızda, həyatda öz yerimizi tapmağımızda ən böyük faktoru. Fərqli-fərqli mühit görüb bizim üçün ən uyğununu seçə bilərik".



**"ASAN" Xidmət könüllüsü Raul Gülməmmədov:** "ASAN" könüllüsü olmaq çox yaxşı bir hissdir. Könüllü olmaq yeni insanlarla tanış olmaq, hər bir tədbirdə iştrak etmək, yeni biliklərə öyrənmək deməkdir. "ASAN" Xidmət mənə bir neçə dərs verib. Könüllü olduğuma görə çox şadam. Könüllü olmağı hər kəsə məsləhət görürəm".



**"Davam" Gənclər Hərəkatının üzvü Lalə Quliyeva:** "Mənim fikrimcə, könüllülük gələcək karyeramda qazanacağım uğur üçün açılan bir cığırdır. Uzun müddətdir ki, "Davam" Gənclər Hərəkatında təcrübəçi kimi fəaliyyət göstərirəm və bu vaxt ərzində burada kifayət qədər təcrübə əldə etmişəm. "Davam"ın üzvü olmaq mənə yeni dostlar, müxtəlif bacarıqlar, əyləncə dolu anlar qazandırdı. Bununla yanaşı özüm və edə biləcəklərimlə bağlı inamımın daha da artmasına səbəb oldu. Gənclərə könüllülük fəaliyyətində aktiv olmalarını tövsiyə edirəm. Bununla da fəaliyyətin müsbət cəhətlərini əyani olaraq görəcəklər".



**Miqrasiya könüllüsü Zəhra Rəhimli:** "Könüllü olmaq könüldən gəlir. Bu fikirlə həqiqətən də razıyam. Mənim könüllülük təcrübəm ilk dəfə NAYORA-da, yəni Azərbaycan Tələbə Gənclər Təşkilatlarının Milli Şurasından başladı. NAYORA-da könüllü olduğum müddətdə həqiqətən də sosiallaşdım. Yeni dostlar qazandım, xeyli inkişaf etdim. Mən deyərdim ki, hər bir gənc mütləq ki, bir dəfə də olsa könüllü olmalıdır. Bu hissi yaşamalıdır. Çünki, təcrübə toplayıb, inkişaf etmək mütləq lazımdır. NAYORA-dan sonra 2-ci könüllülük ünvanım Miqrasiya Könüllüsü İctimai Birliyi oldu. Müxtəlif təlimlərdə, tədbirlərdə iştiraketmə imkanım yarandı. Bu gün sosial, inkişafda və ən əsası özgüvənli fərdəmsə, bunda könüllü-təcrübə proqramlarının da payı var".



**"ASAN" Xidmət könüllüsü Orxan Qayıbov:** "Könüllülük mənə yeni dostlar və unudulmaz xatirələr qazandırdı. Bütün iştirak etdiyim tədbirlər, təlimlər və layihələr mənə yeni biliklər və təcrübə əldə etməyimə kömək etdi. "ASAN" könüllüləri, MEDİA könüllüləri, ASV könüllüləri - bütün bu təşkilatlara, rəhbərlik üzvlərinə və ən əsası mənimlə birlikdə könüllülük yoluna qədəm qoyan bütün gənclərə təşəkkür edirəm".



***Arzu Qurbanzadə***



Qönçə Quliyeva

# Qeybət etmə, mərifət et...

**Bu gün olanlardan xəbərin yoxdu deyəsən. Gəl iki kəlmənin belini qıraq. Elə isə gəl sənə danışım Eeehhh eh! Nə çox danışdıq, amma işimiz qaldı kənarda, ancaq qeybət etdik, işimizi də qeybətə güdaza verdik... Burada kəlmənin beli qırıldı, yoxsa haqqında danışılanın beli qırıldı bilinmir?!**

Bax belə, biz bütün günü olanları kimlərəsə deyirik. Sonra da deyirik ki, yox eee, mən qeybət-zad etmirəm olanı deyirəm ancaq-filan...

Amma arada mənə elə gəlir ki, qeybəti ancaq qorxaqlar və ya paxıllar edirlər. Belə demək olar ki, başqasını özündən yüksəkdə görürsənsə, onu başqalarının yanında pisləməyə başlayırsansa, yuxarıda olanın nüfuzunu düşürməklə yuxarı qalxa biləcəyini sanırsan. Amma!

Amma həyat da bir bumeranqdır. Qeybət etməyə davam edərkən, yuxarı yüksəlməyin əvəzində ya yerində sayacaqsan, ya da uçuruma doğru yuvarlanacaqsan. Qeybət etdiyin insan isə çoxdan öz işini gördüyü üçün səndən çox uzaqlara gedəcək. Sənə qalan isə qeybətini etdiyin adamın arxasınca baxmağın qalacaq...

Bəs qeybət tam mənada nədir?

Bəzi insanlar isə başqa insanların sevincinə şərik ola bilmirlər və etdikləri, sadəcə, kiminsə uğursuzluğuna sevinməkdir. Belə hallarda onların söhbətləri də, əsasən, sevmədikləri insanların yaşadıqları xoş olmayan hadisələr olur.

Əlbəttə, hamı başına gələn hadisələri danışmağı sevir. Amma hadisəni şərh etməklə, hadisəni mənfiyə çevirmək arasında çox fərq var. Əgər üzünə demək cəsarətin yoxdursa, qeybət etmə. Bir gün qeybət edilən vəziyyətə sən də düşərsən. Axı bayaq da dediyim kimi, həyat bumeraqdır!

Hə, bir də o qədər öz işinizlə məşğul olun ki, qeybət etməyəsiniz və ya qeybəti unudasınız. Çünki qeybəti ancaq bekar, el dili ilə desək, avaragor adamlar edirlər. Ən yaxşısı sizə qeybət edənə sual verin ki, ay behmənkəs, axı bunları mənə niyə danışırsan?

Düşünürəm ki, hər kəs öz işi ilə yetərincə məşğul olsa, nə qeybət olar, nə də dava-dalaş. Hətta qeybət edən adama daha faydalı bir iş tövsiyə edə bilərsiniz. Bəlkə beləliklə savaba girib qeybətdən çəkindirəsiniz. Axı Allahımız da buyurub ki, qeybəti bəyənmədiyi əməllər sırasına yazıb. Ona görə də, ey bəni-adəm, qeybət etmə, mərifət et!

# "Faşizm, aqresiya, soyqırım pislənməlidir"

"Azərbaycan Prezidenti cənab İlham Əliyevin Xocalı soyqırımının 30-cu ildönümü ilə bağlı imzaladığı sərəncam əlbəttə, tarixi həqiqəti bir daha yada salır. Eyni zamanda bizim bu 30 il ərzində soyqırım faciəsini unutmadığımızı və bunun bizə verdiyi dərsləri mənimsədiyimizi göstərir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Nizami Cəfərov bildirib. Onun sözlərinə görə, biz gücsüz vəziyyətə salınanda, siyasi baxımdan mütəşəkkil olmayanda xalqımızın başına nələr gətirilə biləcəyini başa düşdük: "Bu baxımdan müəyyən iğtişaşlar, hakimiyyət üzərində problemlər ortaya çıxır. Bu isə insanların məhvinə, uşaqların qurbana çevrilməsinə səbəb olur. Belə hallarda o ölkəyə, o xalqa faşizmin çox ciddi itkilər verdiyi, problemlər yaratdığına da şahid oluruq. Eyni zamanda Xocalı faciəsi həm də bizə ermənilərin, Ermənistanın heç bir vaxt dostluq etməyəcəyi, imkan tapan kimi hər hansı bir xülya ilə qurduqları tarixə istinadən qonşulardan torpaq, nüfuz, siyasi hakimiyyət "davası" aparacaqlarının dərsini verdi. Bu da əlbəttə, çox böyük faciələr törədə bilər. Təsadüfi deyil ki, hətta ermənilərin fəxr etdikləri ziyalılar iç üzlərini göstərib, Xocalı faciəsinin həyata keçirilməsində yaxından iştirak etdilər. Biz Xocalı soyqırımını heç vaxt unutmayacağıq. Hətta Bakı, Quba, Urmiya soyqırımlarını belə heç kim yaddaşlarımızdan silə bilməz. Eyni zamanda bütün bunlar bizi ayıq saxlamaq, düşmənə qarşı mübarizədə lazımi ciddiyət göstərmək üçün lazımdır. Düşünürəm ki, hətta böyük qələbəmizdən sonra belə Xocalı soyqırımının unudulmaması təkcə Azərbaycanın yox, həm də dünyanın xeyrinədir. Faşizm, aqresiya, soyqırım pislənməlidir. Bunlar tək Azərbaycan üçün deyil, bütün dünya üçün lazımdır. Azərbaycan da dünyanın humanist xalqlarından biridir və belə bir xalqın da öz tarixindəki bu tipli halları unutması mümkün deyil. Bəli, biz vaxtilə unutmuşuq. Mart soyqırımlarını unutmuşuq və onu bir daha yaşamağa məcbur olmuşuq. Buna görə də tarixi unutmaq olmaz".

***Səbinə Hüseynli***

# "Brüsseldəki sülh gündəliyinin davamı Azərbaycanın növbəti diplomatik uğurudur"

"44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfəri ilə yeni reallıqlar yaradan və son bir ildən artıq dövrdə bu reallıqların təsdiqi, dünya tərəfindən qəbulu istiqamətində uğurlu nəticələr əldə edərək region və dünya siyasətində dəyişikliklərə yol açan Azərbaycanın hazırda beynəlxalq münasibətlər sistemində mövqeyinin daha da möhkəmlənməsi, rolunun artması təqdir olunur, qarşıdakı dövr üçün müəyyənləşdirdiyi hədəflər böyük dəstək qazanır. Fevralın 4-də Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevin, Fransanın Avropa İttifaqına sədrliyi qismində Prezident Emmanuel Makronun, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda keçirilən görüş bu reallıqlara bir daha işıq saldı. Görüşdə Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə ötən il dekabrın 14-də Brüsseldə keçirilmiş görüşün əhəmiyyəti vurğulanmışdır. Qeyd edək ki, həmin görüş Brüsseldə keçirilən Şərq Tərəfdaşlığı Proqramının VI Sammiti çərçivəsində həyata keçirilmişdir. Dövlət başçısı İlham Əliyevin Sammit çərçivəsində keçirdiyi digər iki və üçtərəfli görüşlərdə, o cümlədən NATO-nun Baş katibi Yens Stoltenberqlə, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə danışıqlarında ölkəmizin dünyada möhkəmlənən mövqeyinin yüksək dəyərləndirilməsi, qlobal təşəbbüslərinin dəstəklənməsi Azərbaycanın haqq-ədalət işinə beynəlxalq səviyyədə göstərilən etimad kimi dəyərləndirildi. Şarl Mişelin, Prezident İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın arasında keçirilən üçtərəfli görüşün nəticələrinə dair Bəyanatda Cənubi Qafqazda sülhün bərqərar olması, regionda kommunikasiya infrastrukturunun yaradılması, sərhədlərin demarkasiyası və delimitasiyası məsələsində Azərbaycanın təşəbbüslərinin və təkliflərinin dəstəklənməsi, dəmir yolu xəttinin çəkilməsinə xüsusi diqqət göstərilməsi Prezident İlham Əliyevin siyasi iradəsinə, qətiyyətinə verilən dəyər kimi qəbul edildi. Görüşlərdə Ermənistanın Azərbaycana qarşı 30 il davam edən işğalçılıq siyasətinin yaratdığı acı nəticələrdən bəhs edən Prezident İlham Əliyevin söylədiyi faktların qarşısında Ermənistanın baş naziri Nikol Paşinyanın acizliyi dünya güclərinin diqqətindən kənarda qalmadı və bir daha sübut olundu ki, Azərbaycan nəinki döyüş meydanında, eyni zamanda, informasiya cəbhəsində, diplomatik müstəvidə də qalibdir." Bu fikirləri Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.



Vüqar Rəhimzadə bu xatırlatmanı da edib ki, Şərq Tərəfdaşlığının Sammiti çərçivəsində Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın qeyri-formal görüşü keçirilmişdir: "Həmin görüşdən sonra Fransa Prezienti "Facebook" hesabında Azərbaycan dilində etdiyi paylaşımında bildirmişdir ki, biz davamlı sülh üçün həll yolları tapmalıyıq. Fransa Prezidentinin fevralın 4-də keçirilən videoformatda görüşə ATƏT-in Minsk qrupunun həmsədri kimi deyil, Avropa İttifaqına sədrliyi qəbul etmiş ölkə kimi qatılması da artıq postmünaqişə dövrünün reallıqlarını qəbul etdiyinin təsdiqidir. Sirr deyil ki, Fransa daim ermənipərəst mövqeyi, işğalçı Ermənistana dəstəyi ilə diqqətdə olan ölkə olub. İstər 30 illik işğal dövründə, istərsə də Vətən müharibəsinin davam etdiyi günlərdə Fransanın yürütdüyü siyasətə, səsləndirdiyi bəyanatlara diqqət yetirsək daim özünə qarşı etimadsızlıq mühitini yaratdığını görərik. Artıq bugünədək keçirilən Moskva, Soşi, Brüssel görüşlərinin, həmçinin fevralın 4-də keçirilən videoformatda görüşün birgə Bəyanatına diqqət yetirsək Minsk Qrupuna istinadın olmadığını görərik. Sənədlərdə həmçinin Dağlıq Qarabağ münaqişəsi və hətta Qarabağ kimi ifadə də yoxdur. Bu, bir daha Qarabağ mövzusunun tamamilə gündəlikdən çıxmasının təsdiqidir. Son görüşün Bəyanatı da bu reallığın növbəti nüminəsidir. Fransa ATƏT-in Minsk qrupunun həmsədri olaraq bu reallığı qəbul edir. 30 illik işğal dövründə vasitəşilik missiyasının mahiyyətini dərk etməyən, ikili standartlara əsaslanan siyasəti ilə münaqişənin həllinin uzanmasına yardımçı olan ATƏT-in Minsk qrupunun fəaliyyəti artıq başa çatıb. Azərbaycan özü ədaləti bərpa etdi, BMT qətnamələrini təkbaşına icra etdi, işğalçıya yerini göstərdi. 28 illik fəaliyyəti dövründə işğalçını adı ilə çağırmaq istəməyən, amma münaqişənin həllinə vasitəçilikdən danışan quruma hazırkı dövrdə-işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin geniş vüsət aldığı mərhələdə ehtiyac yoxdur. Keçirilən görüşlərin Bəyanatları da bu reallığın nümayişidir."

Brüsseldə təsbit olunmuş uğurlu sülh gündəliyinin davam etdiyini önə çəkən YAP Xətai rayon təşkilatının sədri bildirib ki, bu gündəliyin əsasını Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması, Zəngəzur dəhlizinin açılması, itkin düşmüş şəxslərin taleyinin müəyyən edilməsi, minaların təmizlənməsində Azərbaycana yardım və etimad quruculuğu kimi məsələlər təşkil edir. Qeyd edilən məsələlər ətrafında müzakirələr postmünaqişə dövrünün reallıqlarının həm Ermənistan, həm də dünya gücləri tərəfindən qəbul olunduğunu və davamlı sülhün təmin edilməsi prosesinə dəstək göstərməyə hazır olduqlarını təsdiqləyir.

Vüqar Rəhimzadə bildirib ki, dövlət başçısı İlham Əliyev müzakirə olunan məsələlərlə bağlı Azərbaycanın mövqeyini bir daha vurğulayaraq Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş şəxslərin taleyinin, kütləvi məzarlıqların yerinin müəyyənləşdirilməsi, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi sahəsində Azərbaycana beynəlxalq dəstəyin artırılması, dəmir yolu və avtomobil yolu ilə nəqliyyat dəhlizinin açılması kimi məsələləri xüsusi diqqətdə saxladı: "Ölkə Prezidenti Birinci Qarabağ müharibəsi zamanı 71-i uşaq, 267-si qadın və 326-sı ahıl olmaqla, ümumilikdə 3890 Azərbaycan vətəndaşının itkin düşməsini növbəti dəfə xüsusi diqqətə çatdırdı. Bu fakt da diqqətə çatdırıldı ki, Vətən müharibəsinin başa çatmasından bəri mina partlayışı nəticəsində 36 nəfər Azərbaycan vətəndaşı həlak olub, 165 nəfər isə yaralanıb."

"Postmünaqişə dövrünün reallıqları fonunda keçirilən hər bir görüşün sonunda qəbul olunan sənəd siyasətində ədalətə və beynəlxalq hüququn norma və prinsiplərinə üstünlük verən, ən əsası 44 günlük İkinci Qarabağ münaqişəsi dövründə dünyaya bu məfhumların mövcudluğunu sübut edən Azərbaycanın sözünün nə qədər dəyərli olduğunu, irəli sürdüyü təşəbbüslərin böyük dəstək qazandığını özündə ehtiva edir. Azərbaycan Ermənistana təklif etdiyi sülh müqaviləsinin tezliklə imzalanmasında maraqlıdır. Bölgədə daimi sülhün, təhlükəsizliyin təmin olunması ilə yeni əməkdaşlıq formatlarının reallığa çevrilməsi imkanları da genişlənəcək. Kommunikasiyaların açılması əlaqələrin inkişafına, iqtisadi tərəqqiyə böyük dəstək olacaq. Dövlət başçısı İlham Əliyevin çıxışlarında səsləndirdiyi "Biz sülh istəyirik, müharibə istəmirik. Biz müharibəni uduq, biz qalibik və bu reallıq nəzərə alınmalıdır. Dağlıq Qarabağ münaqişəsi həll olunub. Dağlıq Qarabağın qondarma statusu ilə bağlı və ya buna bənzər hər hansı müzakirələrə qayıdış yoxdur" bəyanatında da bu çağırışlar özünü aydın şəkildə göstərir ki, Ermənistan reallıqları qəbul etməli, bölgə dövlətləri arasında münasibətlər bu reallıqlar əsasında qurulmalıdır",- deyə YAP Xətai rayon təşkilatının sədri bildirib.




## "Azərbaycanla Avropa arasında yeni bir səhifə açıldı"

"2022-ci il 4 fevralda Azərbaycanla Avropa arasında yeni bir səhifə açıldı. Biz ilk dəfə Avropa ilə qaz üzərində əməkdaşlıq haqqında sənədi 2013-cü il 19 sentyabrda imzalamışıq". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı İlham Şaban bildirib.

Onun sözlərinə görə, həmin dövr də Avropa tərəfindən 10 şirkət "Şahdəniz" lahiyəsində iştirak edərək, qaz almaq niyyətində olduqlarını rəsmiləşdirmişdilər: "4 fevralda Bakıda keçirilən 8-ci Məşvərət iclası Azərbaycan qazının Avropa bazarında satılmasının ilinə həsr edilmişdi. Bu müddət ərzində Azərbaycan özünü Avropa bazarında intizamlı biri kimi təqdim etmiş, eyni zamanda qarşı tərəf bizim nə dərəcə də ciddi bir oyunçu olduğumuzun fərqinə vardılar. Bunun nəticəsi olaraq iclasda ölkəmizdən qaz almayan dövlətlər belə öz enerji təchizatlarını məhz Azərbaycan üzərindən təmin etmək istədiklərini bildirdilər. Yəni 2022-ci il 4 fevralda keçirilən görüşdə Avropa Azərbaycandan əlavə qaz həcmlərini almasını rəsmən bəyan etdi.

Azərbaycan tərəfi isə bir qaz ölkəsi olaraq təklifi məmnunluqla qəbul etdi. Avropanın enerji komissarının dediyi kimi bir müddət təqiqatlar aparılmalı və hər iki tərəfin qane edəcək təchizat həcmləri müəyyənləşdirilməlidi".

***Banuçiçək Hüseynli***

## "Bu, Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyini daha da gücləndirir"



"Kollektiv əməkdaşlığın uğurlu kombinasiyası yeni perespektivlər yaradır". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib. Onun sözlərinə görə, fevralın 4-də "Gülüstan" sarayında Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin VIII toplantısında səsləndirilən fikirlər dəhlizin istismara verilməsindən ötən bir il ərzində qət edilən məsafə və əldə olunan nəticələrin xeyli sayda Avropa ölkəsinin yenidən bu layihəyə marağının artmasına səbəb olduğunu ortaya qoydu: "Cənub Qaz Dəhlizini cazibədar edən çoxsaylı səbəblərdən biri isə unikal alternativ enerji kəməri kimi təhlükəsiz və sabit olması, hər cür siyasi spükuliyasiyalardan uzaq tutulmasıdır. Bu isə mənbə və ixracatçı ölkə olan Azərbaycanın həyata keçirdiyi strateji enerji siyasəti ilə bağlıdır. Üstəlik yeni perspektiv qaz mənbələrinin kəşf edilməsi və təsdiq edilmiş qaz yataqlarının nəhəng ehtiyatları hazırda Avropada hər gün bir az daha bahalaşan və bəzən qlobal siyasi gündəmin də mövzusuna çevirilən qaza tələbatın daha da artması Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyini daha da gücləndirir. Yəni Avropa Azərbaycanı özünün enerji təhlükəsizliyini təmin edən etibarlı tərəfdaş və strateji partnyor kimi görür.

Doğurdan da istər 44 günlük müharibə dövründə, istərsə də post-müharibə dövründə yeni reallıqların qəbul edilməsi prosesinin gərgin vaxtlarında belə Azərbaycan sabit və etibarlı tərəfdaş kimi bütün beynəlxalq öhdəciliklərini yerinə yetirməklə ən çətin geo-strateji vəziyyətdə belə enerji kommunikasiyalarının təhlükəsizliyini yüksək səviyyədə təmin etməyi bacardığını nümayiş etdirdi. Bütün bunlar şübhəsiz ki, nəticə etibarilə Aİ üçün Azərbaycan ilə tərəfdaşlıq münasibətlərinin böyük əhəmiyyət kəsb etdiyinin etiraf olunmasına və bu münasibətlərin daha da gücləndirilməsi üçün iqtisadi sərmayə planı çərçivəsində Azərbaycana 2 milyard avroluq maliyyə paketinin ayrılmasına gətirib çıxardı. Ona görə də Avropa İttifaqı ilə qarşılıqlı etimada söykənən münasibətlərə toxunan Prezident İlham Əliyev qeyd etdi ki, enerji siyasətimizin arxasında heç bir siyasi gündəm olmayıb: "Bizim enerji siyasətimiz həmişə çox açıq, şəffaf, biznes və nəticələrə hesablanmış olub, əməkdaşlığa və qarşılıqlı dəstəyə gətirib çıxarıb". Hazırda isə Azərbaycanda daxili enerji tələbatını ödəmək üçün çox mühüm yaşıl enerji layihələri həyata keçirilməyə başlanılır ki, bu da nəticə etibarilə Aİ ölkələrinə daha çox qaz ixrac edilməyi mümkün edəcək. Beləliklə ölkəmiz iki strateji hədəfə yeni həm yaşıl və bərpa olunan enerji mənbələri ilə öz enerji tələbatını ödəməyə, həm də hazırki qaz ehtiyatlarından maksimum səmərəli istifadə etmək hədəflərinə nail olmağa çalışır".

***Arzu Qurbanzadə***

# Ata-övlad münasibəti necə olmalıdır?

**Uşağın atası ilə körpəlikdən başlayan münasibəti onu gələcəyə hazırlayır. Atası ilə münasibət nə qədər güclü və sağlam olarsa, uşaq da bir o qədər sağlam olar. Sevmək, vaxt ayırmaq, əhəmiyyət vermək, onu anlamağa çalışmaq uşağınızın gələcəkdə daha yaxşı yetkinlik dövrünə keçməsinə kömək edəcək və aranızdakı bağları gücləndirəcək.**

Ünsiyyət hər sahədə vacib olduğu kimi ata və uşaq arasında yaxınlaşma və anlaşmanın da əsasını təşkil edir. Uşağın həyatı dərk etməsi, doğru ilə yanlışı ayırd etməsi üçün ixtiyar sahibi olan ata arasında ünsiyyət sağlam olmalıdır. Bu əslində düşündüyümüz qədər çətin deyil. Ata ilə uşaq arasında sadə və sağlam münasibət qurmaq üçün övladımızı böyükləri dinlədiyimiz qədər diqqətlə dinləməli, göz təması qurmalı, onlarla düzgün rəftar etməliyik.

Uşaqlar doğulduğu andan həyatı anla-



mağa və öyrənməyə başlayır. Uşaq körpəlik dövründən etibarən atası ilə ünsiyyətini üz ifadələri, səslər və reaksiyalarla paylaşmağa çalışır. Psixoloqlar uşaqların öyrənmələrinin ən sürətli yolunun ”görərək öyrənmək” olduğunu vurğulayır. Yəni ataların övladlarına qarşı davranışları, öyrətmələri, övladlarının həyat təcrübələrinin yerini almağa başlaması qaçılmazdır. Bir ata olaraq övladınızı gələcəyə hazırlamaq və düzgün öyrətmək istəyirsinizsə, bunu öz davranışınızdan başlayaraq etməlisiniz.

Qorxu və sevgisizlik üzündən uşaq üzərində heç bir hakimiyyət qurulmur. Uşağınızı sevmək və ona bunu fiziki olaraq hiss etdirmək, onun bəyənmə və qəbul etmə hissini gücləndirir, daha sevgi dolu bir fərd olaraq həyatına və insan münasibətlərinə müsbət təsir göstərir.

Sevilmək və bəyənilmək hissi insanın var olduğu gündən bəri ən vacib ehtiyaclarından biridir. Uşaq sevildiyini, başa düşüldüyünü, söz sahibi olduğunu bildiyi bir mühitdə öz muxtariyyətini təmin edəcək gücə çatır və özünü ifadə edən fərdə çevrilir. Siz uşaq üçün sərhədlər təyin edə bilərsiniz, lakin bu, uşağın danışmasına imkan verməyən, müzakirə olunmayan sərhədlər olmamalıdır. Məsələn, ”Bunu etmə” demək əvəzinə, uşağa hər hansı bir mövzuda seçim təklif edə bilərsiniz. Beləliklə, onun müsbət və ya mənfi davranışlarına görə məsuliyyət daşımasını və nəticədə təsirlənəcək şəxsin özü olduğunu başa düşməsini təmin edə bilərsiniz.

Cəmiyyətdə verilən tövsiyələr əslində dağıdıcı inam itkisinə, uşaqda günahkarlıq hissinə və ataya qarşı qəzəbinə səbəb ola bilər. Unutmaq olmaz ki, övladını cəmiyyətə gətirmək istəyən ata dediyi və uşağına gətirmək istədiyi davranışları əvvəlcə həyata keçirməlidir. Əks halda uşaqda qarşıdurma mühiti yarana bilər və həyata hazırladığınız məsələlərə qarşı verdiyiniz məsləhətlər dəyərini itirə bilər.

Ataları tərəfindən baxımsız qalan uşaqlar gündəlik tələskənlik, iş, həyat, evlilik və həyat şərtləri ilə mübarizə apararkən emosional və mənəvi çöküş yaşaya bilər. Atanın uşaqla vaxt keçirməsi və onunla keyfiyyətli fəaliyyətlər etməyə hazır olması lazımdır. Ata və uşağın birlikdə keçirəcəkləri keyfiyyətli vaxtın aralarındakı bağı gücləndirəcəyini vurğulayan mütəxəssislər, ”sevmək, vaxt ayırmaq, əhəmiyyət vermək, onu anlamağa çalışmaq uşağınızın gələcəkdə daha yaxşı bir yetkinliyə keçməsinə kömək edəcək və aranızdakı bağları gücləndirəcək” deyib. Gələcəyimiz olan övladlarımıza sevgi dolu bir həyat buraxmaq üçün uşaqlarımızı sevgi dolu bir mühitdə böyütməli, onlara sevildiklərini hiss etdirməliyik.



Zorakılıq anlayışını fiziki zorakılıq, psixoloji zorakılıq, cinsi zorakılıq və iqtisadi zorakılıq kimi təsnif etmək olar. Ancaq özünü müdafiə edə bilməyən balaca balalarımızın tez-tez qarşılaşdıqları şiddət növü fiziki və psixoloji zorakılıqdır. Hamımızın bildiyi kimi, fiziki zorakılıq böyük zərər və sonradan dolayı yolla psixoloji zərər verən fiziki müdaxilələr toplusudur. Psixoloji zorakılıq isə fiziki zorakılıqla birlikdə istifadə oluna bilər və ya təzyiq, hədə-qorxu, alçaldılma və alçaldılma motivləri ilə tək başına edilə bilər.

Uşaqlara fiziki və ya psixoloji zorakılıq tətbiq olunmasından asılı olmayaraq, onun törədə biləcəyi təsirlər böyüklərlə müqayisədə ağır nəticələrə səbəb ola bilər. Məsələn,



böyüklərə şifahi hücum etmək və uşağa hədə-qorxu gəlmək və eyni hüquqa zidd hərəkəti etmək cinayətini törətmək onun yaratdığı təsir baxımından fərqli olacaq. Məsələn, bir yetkinin məruz qaldığı sadə bir yanlış hərəkət kiçik bir körpənin kabus görməsinə, psixologiyasının pisləşməsinə və hətta dilinin tutulmasına səbəb ola bilər. Bu səbəbdən Türkiyə Cəza Məcəlləsi və digər qanuni tənzimləmələrin hazırlanmasında özünü müdafiə edə bilməyən insanlara və uşaqlara qarşı törədilən cinayətlər daha ağır cəzalarla nəticələnir. Eynilə, ailənin qorunması və qadınlara qarşı zorakılığın qarşısının alınması ilə bağlı qanunvericiliyimizdə təhlükəsizlik tədbirləri yüksək səviyyədədir.

SİA məsələ ilə bağlı araşdırma apararaq psixoloq, sosioloq və hüquqşünasların fikirlərini öyrənib.

**Psixoloq Fidan Namazova:** "Son zamanlarda biz nəinki ataların, həmçinin müəllimlərin və uşaq üzərində himayəsi



olan şəxslərin uşaqlara qarşı şiddətinin şahidi oluruq. Bu əslində hər zaman var olub və indi də var.

Kişilərə ata olmağı, atalıq etməyi öyrətmirlər. Ata olmaq yalnız pul qazanmaq və ailəni dolandırmaqdan ibarət deyil. Atanın uşağa göstərdiyi şiddət ona daha ağır gəlir. Çünki ata uşağın gözündə müdafiə edən, qoruyan şəxs obrazıdır. Bunu tərbiyə metodu kimi istifadə edənlər az deyil. Bu qayda heç düzgün deyil. Uşaq bizdən nə qədər qorxursa o qədər uzaqlaşır və nə qədər uzaqlaşırsa o qədər pis əməllərə qurşanır.

Bundan çıxış yolu atanın övladı ilə zaman keçirməsi nəticəsində olur. Atanın övladı ilə zaman keçirməsi normallaşmalıdır. Yəni, bu qadın işinə çevrilməməlidir. Uşağın ata qayğısına çox böyük ehtiyacı var. Gündə 10 dəqiqə də olsa atanın uşaqla göz kontaktı qurması, ona güvən aşılaması vacibdir.

Burada oğul böyüdən anaların da çox böyük rolu var. Onlar oğullarına kiçik yaşlarından atanın necə olmasını aşılamalıdır ki, o uşaq böyüyəndə ata olmağın nə olduğunu dərk etsin.

Müəyyən yaşa çatmış və yanlış tərbiyə almış kişilər dərk etməlidir ki, zorakılıq heç bir yaxşı nəticəyə gətirib çıxara bilməz. Düşünməyin ki, qol gücü vasitəsilə özünüzə tabe etdiyiniz uşaq şəxsiyyət olacaq".

**Azərbaycan Uşaqları İctimai Birliyinin hüquqşünası Fariz Əkbərov:** "Valideynlərin boşanması və ya ayrı yaşamaq barədə qərarı uşaqların əksəriyyətinə xüsusi zərər vurur. Bəzi hallarda uşaqlara valideynlərin dərhal ayrılması deyil, məhz boşanmaya qədər, boşanma vaxtı və boşanmadan sonrakı müddətdə onların arasındakı mübahisələr zərər vurur. Təbii amil uşağın psixi sağlamlığında başlıca məsələdir. İrsilik narahatlıq, depressiya və psixoz kimi cavab reaksiyalarının meydana çıxmasında əhəmiyyətli rol oynayır. Valideyn məsuliyyəti valideyn (ata, ana, qanuni nümayəndə) üzərinə düşən hüquq və kimi başa düşülür.

Uşağın böyüdülməsi, cəmiyyətdə layiqli fərd kimi yetişdirilməsində hər iki valideynin rolu önəmlidir. Bu məsələdə hər hansı iş bölgüsünün aparılması yolverilməzdir və hər iki valideyn bu məsuliyyəti bərabər bölüşməlidir.

Valideynlik hüquqlarını həyata keçirərkən valideynlər uşaqların mənəvi inkişafına, fiziki və psixi sağlamlığına xələl yetirməməlidirlər. Törədilmiş xəsarətin nəticəsindən asılı olaraq valideyn inzibati məsuliyyətə eyni zamanda əgər xəsarət yüngül, az ağır olsa cinayət məsuliyyətə cəlb edilməsi mümkündür. Əgər valideynlərinin hər ikisinin bir yerdə uşağa işgəncə verməsi faktı təsdiq olunarsa, belə olan halda cinayət mə-



cəlləsinin 133-cü maddəsi ilə əzab vermə, 2 ildən 5 ilə kimi azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Uşaqlar hər yaş dövründə fərqli olur. Buna görə də onlarla davranışda buna xüsusi diqqət göstərilməlidir. Ümumiyyətlə, uşağı nəyisə eləməyə və ya eləməməyə vadar etmək üçün ona fiziki cəza tətbiq edən, hədə-qorxu gələn valideynlər hazır olmalıdırlar ki, gələcəkdə uşaq onlara daha çox problem yaradacaq".

SİA araşdırma mövzusu ilə bağlı şəhər sakinlərinin fikirlərini də öyrənib.

**Şəhər sakini Sona Şıxəmirli:** "Məncə, burada söhbət konkret olaraq ata-uşaq münasibətindən yox, insan faktorundan gedir. Nəinki uşağına, ümumiyyətlə, içində bir insana qarşı sevgi hissi olan biri belə hərəkət etməz. Məncə, ata-övlad münasibəti dost kimi olmalıdır. Uşaq atasını, anasını həyatda dostu kimi qəbul etməli və dərdini ilk ona deməlidir. Amma təəssüf ki, bəzi ailələrdə belə deyil. Mənim fikrimcə, bir uşağa tərbiyə verməklə, sevgi vermək fərqli anlayışdır. Tərbiyə ən pis halda sonradan formalaşa bilər. Amma sevgi əgər uşağın qəlbinə uşaq ikən hopdurulmayıbsa, sonradan onu qazanmaq çətindir".

**Şəhər sakini Fatma Abdulla:** "Hər bir halda uşaqlar atadan qorxmamalıdır. Amma hörmət etmək lazımdır. Ata məfhumu çox böyük məna daşıyır. Təbii ki, bu adı layiqlə danışa bilənə. Uşaqlıqdan qaynaqlanan bəzi travmalar, valideyn olmağa hazırlıqlı olmamaq kimi hallarda ataların övladlarına qarşı zor tətbiq etdiyinin, düzgün davranışlar sərgiləmədiyinin şahidi oluruq. Bu təbii ki, çox cansıxıcıdır. Şəxslər ailə həyatı qurarkən evliliyə, valideyn olmağa hazırlıqlı olmalıdır. Ata-övlad münasibəti başlıca olaraq sevgi və qayğı çərçivəsində həyata keçirilməlidir".

**Şəhər sakini Ləman Babayeva:** "Son zamanlar baş verən hadisələr heç xoş deyil. Mən bütün bu olanları həmin valideynlərin öz valideynləri tərəfindən sevgisiz, qayğısız qalması ilə əlaqələndirirəm. Nəticə etibari ilə onlar da öz ailələrindən gördüklərini uşaqlarına ötürürlər ki, buna da şiddət, nalayiq sözlərdə daxildir. Qaldı ki, öz övladını öldürmək bunu sadəcə vəhşilik adlandırmaq olar. Düşüncə qabiliyyətinə malik olan heç bir şəxs Allahın övladına verdiyi nəfəsi kəsə bilməz. Bu insanlığa sığmayan davranışdır. Həmçinin cəmiyyətimizə, gələcək nəsilə birbaşa psixoloji təsir edən mənfi nümunələrdir. İnsanlar bu cür davranışlarına görə şiddətlə qınanmalı hətta ömürlük həbsə məruz qalmalıdır".

**Şəhər sakini Aysu Məmmədova:** "Ümumiyyətlə şiddətin təməli ailədən gələn bir şeydir. İnsan uşaqlıqda öz ailəsində nə görürsə gələcək həyatında bunu da istər istəyərək, istərsə də şüuraltı olaraq istəməyərək öz həyatına tətbiq edir. Bəzi dırnaqarası atalar var ki, bu şiddətlə böyüyür və öz yaşadıqlarını gələcəkdə öz uşaqlarına yaşadır. Bir növ şüuraltı olaraq öz keçmiş yaşantılarının heyfini öz uşaqlarından çıxır. Bəzilərinə görə isə şiddət uşağı daha böyük xətalardan qoruma şəklidir. Hansı ki məncə bu da psixoloji olaraq doğru düşünə bilməyənlərin yanaşma tərzidir. Əslində bu insanın xarakterindən və vicdanındanda asılıdır. Məncə, ata-uşaq münasibətinin kökləri güvənə dayanmalıdır. Ata uşağına güvən verməlidir".

***Ayşən Vəli***

# "Bütün bu uğurların təməlində neft strategiyamız dayanır"

**"Hansı beynəlxalq platformadakı müzakirələrdə Azərbaycan və Prezident İlham Əliyev iştirak edirsə, o platformada çoxları üçün reallıq kimi görünməyən məsələlər reallığa çevrilir. Cənub Qaz Dəhlizi layihəsi də zamanında çoxlu ölkələr üçün xəyal kimi görünürdü. Amma Azərbaycanın orada olması və layihədə əsas investor kimi çıxış etməsi digər iştirakçıların da marağına səbəb oldu". Bu sözləri SİA-ya açıqlamasında deputat Azər Badamov deyib.**

Onun sözlərinə görə, XXI əsrin ən böyük investisiya layihəsi adlandırılan 33 milyard dollar dəyərində CQD 2020-ci ilin dekabrın 31-də başa çatdı: "Azərbaycan qazı ilk dəfə olaraq Avropa qitəsinə daxil olmağa başlandı. Bütün bu uğurların təməlində Ümummilli Lider Heydər Əliyev tərəfindən 1994-cü ildə əsası qoyulan neft strategiyamız dayanır. Milli sərvətlərimiz olan neft və qazın istehsalına xarici investorları cəlb etməklə milyardlarla dollar investisiyalar Azərbaycanın iqtisadiyyatına yatırıldı. Karbohidrogen resurslarımızın hasilatının artması və yeni potensialların müəyyənləşməsi neft və qazın ixrac xətlərinin tikintisini aktuallaşdırdı".

Deputat sözlərinə belə davam edib: "1999-cu ildə Bakı-Supsa və 2006-cı ildə Bakı -Tiblisi -Ceyhan neft, 2007-ci ildə Bakı-Tiblisi-Ərzurum qaz kəmərləri tikildi. 2011-ci ildə Avropa İttifaqı və Azərbaycan arasında Xəzərdən Avropaya birbaşa qaz nəql edən marşrutların yaradılmasını dəstəkləyən Birgə Bəyanat imzalandı və 2014-cü ildən Cənub Qaz Dəhlizinin tikintisinə start verildi.

2018-ci ildə TANAP və 2020-ci ildə TAP layihələri başa çatmaqla 3500 km uzunluğunda olan böyük bir qaz ixracı xəttimiz istifadəyə verilmiş oldu. Cənub Qaz Dəhlizinin inşası ilə bağlı görülən işləri müzakirə etmək və görüləcək işləri planlaşdırmaq məqsədilə Məşvərət Şurası yaradıldı. 2015-ci ildən başlayaraq hər il CQD Məşvərət Şurası çərçivəsində nazirlərin toplantıları keçirilir. CQD başa çatanda bəzi dairələr düşünürdülər ki, Məşvərət Şurasının da işi bitəcəkdir. Amma cənab Prezidentin təşəbbüsləri Məşvərət Şurasının aktuallığını



nəinki azaltdı, əksinə daha da artırdı və iştirakçı ölkələrin sayı da genişlənir".

4 fevralda Bakıda fəaliyyətə başlayan CQD Məşvərət Şurasının VIII Toplantısında 20-yə yaxın ölkə, beynəlxalq maliyyə qurumları və dünyanın aparıcı şirkətlərin nümayəndələri iştirak edir. Toplantının mövzusu da bu günün reallığı üçün daha da aktuallaşdı.

Toplantıda "Cənub Qaz Dəhlizi: nailiyyətlər və perspektivlər - Cənub Qaz Dəhlizinin yeni enerji bazarları, o cümlədən Qərbi Balkan ölkələri istiqamətində genişləndirilməsi" və "Enerji keçidi - Karbohidrogen mənşəli yanacaqlardan və metan tullantılarının azaldılması tədbirlərindən karbon neytrallığına doğru: yollar, çağırışlar, qrafiklər" mövzularının müzakirəsi keçirilir. Toplantıda Prezident İlham Əliyev geniş nitqlə çıxış edərək bu möhtəşəm layihənin ərsəyə gəlməsində keçdiyi yola bir daha ekskursiya etdi. Həm də bu gün Azərbaycanın enerjiyə keçiddə baxışlarını və bu baxışların reallaşdırılmasında ölkəmizin potensialını, o cümlədən işğaldan azad olunmuş ərazilərin potensialını toplantı iştirakçılarının diqqətinə çatdırdı. Azərbaycan beynəlxalq investisiyaların yerləşdirilməsi üçün ən çox cəlbedici məkandır.

Ölkəmizdəki siyasi və iqtisadi sabitlik, ixrac imkanlarımızın genişlənməsi və sözümüzün imzamız qədər möhkəm olması xarici investorların ölkəmizə cəlbediciliyini artırır.

Düşünürəm ki, CQD Məşvərət Şurası çərçivəsində nazirlərin iştirakı ilə toplantlar uzun illər keçiriləcək və Bakı qlobal çağırışlara uyğun dünya üçün aktual məsələlərin müzakirəsi üçün əvəzolunmaz platformaya çevriləcəkdir".

***Ayşən Vəli***

# Türk dünyasını birləşdirəcək qardaşlıq yolu - Zəngəzur dəhlizi

2009-cu ildə Naxçıvanda keçirilən Türkdilli Ölkələrin Dövlət Başçılarının Zirvə Toplantısında çıxış edən Prezident İlham Əliyev ümumtürk birliyinin möhkəmlənməsinin faydalarından bəhs edərkən bildirmişdir ki, türk dünyasının mənəvi birliyinin siyasi təzahürünə nail olmaq, dünya qarşısına bütün cəhətlər üzrə daha üstün sivilizasiya ilə çıxmaq başlıca vəzifədir. İkinci Qarabağ müharibəsini Zəfərlə başa vuran Azərbaycanın bölgədə yaratdığı reallıqların ən önəmlisi olan Zəngəzur dəhlizinin bərpası ilə bağlı Prezident İlham Əliyevin göstərdiyi qətiyyət bir neçə il bundan əvvəl proqnoz olan istəkləri, arzuları gerçəkləşdirir. "Zəngəzura gəldikdə, mən Naxçıvan zirvəsindəki çıxışımı xatırlatmaq istəyirəm. O zaman mən demişdim ki, 1920-ci ildə sovetlər hakimiyyəti Zəngəzuru Azərbaycandan qoparıb Ermənistana verməklə türk dünyasının coğrafi bağlantısını pozmuşdur və bunu xəritəyə baxmaqla hər kəs görə bilər. Bu gün isə biz bu coğrafiyanı bərpa edirik. Artıq nəqliyyat, kommunikasiya layihələrinin həyata keçirilməsi ilə biz bu coğrafiyanı yenidən bağlayırıq, birləşdiririk və ümid edirəm ki, buna sona qədər müvəffəq olacağıq" söyləyən Prezident İlham Əliyevin dəhlizin açılması ilə bağlı göstərdiyi siyasi iradənin nəticəsidir ki, Zəngəzur dəhlizinin bərpası ilə bağlı tikinti işlərinə başlanması dünya birliyinin diqqətini Cənubi Qafqaza yönlənib.

Ötən il Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının İstanbulda keçirilən VIII Zirvə Toplantısında Zəngəzur dəhlizinin bölgə və müsəlman ölkələri üçün əhəmiyyətindən bəhs edən Prezident İlham Əliyev qətiyyətlə bildirmişdir ki, bu dəhliz açılacaq: "Biz indi böyük bərpa işləri ilə məşğuluq. Eyni zamanda, İkinci Qarabağ savaşının nəticələri bölgə üçün yeni imkanlar açır. O cümlədən hesab edirəm ki, nəqliyyat baxımından Zəngəzur koridorunun açılması bütün bölgə üçün yeni imkanlar açacaqdır. Ümid edirəm, öz işğalçılıq siyasətinə görə məğlub vəziyyətdə olan Ermənistan da gec-tez anlayacaq ki, heç bir ölkəyə ərazi iddiası onlara xeyir və şərəf gətirməyəcək. Ümid edirəm ki, yaxın gələcəkdə Ermənistanın həm Türkiyəyə, həm Azərbaycana ərazi iddialarına son qoyulacaq. Əks təqdirdə onlar daha da pis duruma düşə bilərlər. Zəngəzur koridoru isə həm türk dünyasını, həm Avropanı, həm qonşularımızı birləşdirə biləcək bir layihədir və bu gün bu layihənin gerçəkləşməsi istiqamətində fəal işlər gedir."




















Regional əməkdaşlığın yaradılması üçün hazırda çox ümidverici 3+3 əməkdaşlıq platformasının yaradılmasında da məqsəd Zəngəzur dəhlizinin bərpasını tezləşdirmək, bölgə dövlətlərinin qarşılıqlı əməkdaşlığını möhkəmləndirməklə regional sülhə nail olmaqdır. Prezident İlham Əliyev İran İslam Respublikasının yol və şəhərsalma naziri Rüstəm Qasimi ilə videoformatda keçirilən görüşündə də Zəngəzur dəhlizinin bərpası ilə bağlı fikirlərini açıqlamışdır: "Siz dünən, eyni zamanda, Zəngəzur dəhlizinin yaradılması üçün aparılan işlərlə də tanış olmusunuz. Həm avtomobil yolu, həm dəmir yolu artıq uğurla inşa edilir və Ermənistandan da biz müsbət xəbərlər alırıq. Ermənistan öz tərəfində də bu işlərə start verməyi planlaşdırır" söyləyən Prezident İlham Əliyev qarşılıqlı əməkdaşlıq sayəsində bərpa olunacaq Zəngəzur dəhlizinin bölgə üçün əhəmiyyətini diqqətə çatdırmaqla bu layihənin reallaşması üçün artıq müəyyən işlərin görüldüyünü də bildirmişdir.

"Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik" söyləyən Prezident İlham Əliyevin layihə ilə bağlı gördüyü işlər, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması bu mühüm kommunikasiyanın nəzərdə tutulduğu müddətdə istifadəyə veriləcəyinə əminlik yaradır.

Ötən il Azərbaycanın tarixində əlamətdar hadisə olan Türkiyə ilə Azərbaycan arasındakı Müttəfiqlik Bəyannaməsinin imzalanma mərasiminin Qars müqaviləsinin 100-cü ildönümünə, Azərbaycanın Milli Qurtuluş Gününə təsadüf etməsinin rəmzi mənası vardır.

Bəyannamənin imzalanması mərasimində Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Tarixi Qars müqaviləsi düz yüz il əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir" sözləri artıq reallaşır.

Zəngəzur dəhlizinin bərpasının Şuşa Bəyannaməsində yer alması, Cənubi Qafqazda yaranmış yeni reallıqlar, Azərbaycan dövlətinin və xalqının birbaşa qalibiyyəti deməkdir. Dövlət başçımızın apardığı uzaqgörən siyasət nəticəsində 100 il bundan əvvəl yol verilmiş ədalətsizliyə son qoyuldu.

Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış Şuşa Bəyannaməsi hər iki dövlət başçısının siyasi iradəsinin məntiqi nəticəsi olmaqla beynəlxalq aləmin türk birliyinin gücü ilə barışmalı olması həqiqətinin təzahürü, hər iki ölkənin ümumi maraqlarına xidmət edən strateji əməkdaşlığının beynəlxalq aləmdə təsdiqlənməsi deməkdir.

Zəngəzur dəhlizinin açılması regionda, beynəlxalq aləmdə nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası, şaxələndirilməsi deməkdir. Çünki bu dəhlizin bərpası ilə Azərbaycan tarixi ərazisi olan Naxçıvan Muxtar Respublikası, Türkiyə ilə birləşəcək, Bakı -Naxçıvan- Qars dəmir yolu ilə iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələri intensivləşəcək.

Bu günlərdə Milli Məclisdə, Türkiyə Böyük Millət Məclisində Şuşada imzalanan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsi fevralın 3-də Türkiyə Böyük Millət Məclisi tərəfindən təsdiqlənib. Müttəfiqlik Bəyannaməsinin təsdiqlənməsi Zəngəzur dəhlizinin bərpasını da sürətləndirəcək.

***Xuraman İsmayılqızı***

TƏRS BAXIŞ

# Rusiya sülhməramlıları: qalmalıdır, getməlidir?

## Yaxud, RSK üzərinə götürdüyü məsuliyyəti yerinə yetirə bilmirsə...

**Hələ 2020-ci ilin 10 noyabrında imzalanan üçtərəfli bəyanatdan dərhal sonra Qarabağ regionuna təşrif buyuran Rusiya sülhməramlıları kontingentinin (RSK) davranışları ilk gündən göstərdi ki, onlar üzərlərinə düşən məsuliyyətin öhdəsindən ya qəsdən gəlməyəcəklər, ya da həmin məsuliyyəti icra edərkən maksimal dərəcədə erməni separatçılarının maraqlarına xidmət göstərəcəklər.**

Təəssüf ki, ilk gündəncə belə də oldu. Misal üçün, Kəlbəcərdən, Laçının kəndlərindən çıxan ermənilər ekoloji terror törətdilər, meşələrimizi, flora və faunamızı məhv etdilər, üstəlik, işğal müddətində zəbt etdikləri azərbaycanlıların evlərini yandırdılar və ən pisi - ərazilərimizi xaotik şəkildə minalayaraq tərk etdilər. Bütün bunlar isə humanizm prinsiplərindən çıxış edən Azərbaycan dövlətinin onlara verdiyi əlavə müddətdə baş verdi. RSK isə baş verənləri, sadəcə, seyr etdi və baş verənlərin qarşısını almadı (?!)




### Təxribatçı əməllər bu gün də davam etməkdədir




Bax, onda məlum və ya sübut olunmağa başlandı ki, qarşıdakı illərdə müxtəlif təxribatlara göz yumulacaq və yumuldu da. Sonrakı müddətdə separatçıların terror əməlləri baş verdi, minalanmış ərazilərdə onlarla vətəndaşlarımız, hərbçilərimiz həlak oldu, yaxud əlil qaldılar. Əlavə olaraq isə üçtərəfli bəyanatın bəlkə də ən əsas - 4-cü bəndində tələb olunan müddəa yerinə yetirilməmiş qaldı. RSK-nın məsul olduqları ərazilərimizə daxil olarkən paralel şəkildə separatçı qüvvələr və erməni hərbi birləşmələri Qarabağdan çıxarılmamış qaldılar. Təxribatçı, qəsd əməlləri isə davam edirdi və təəssüf ki, bu gün də davam etməkdədir.



### Belə olan halda Azərbaycanın antiterror əməliyyatlarını keçirməsinə kifayət qədər əsaslar yaranır

Bugünlərdə qanunsuz erməni hərbi birləşmələrinin Tərtər istiqamətinə atəş açmaları da qeyd edilən faktların tərkib hissəsidir. O cümlədən, RSK-nın mühafizəsi altında Xankəndi ətrafında, Ağdərədə, Əsgəranda, Ağdam təmas xəttində qazılan səngərlər, habelə daha bir olay - separatçı rejim "polislərinin" Azərbaycanın suveren ərazilərində RSK ilə birgə (!) inşaat materialları daşıyan yük maşınlarımızı yoxlamaları artıq bütün qırmızı xətlərin keçdiyini isbat etdi.

Belə olan halda Azərbaycanın antiterror əməliyyatlarını keçirməsinə kifayət qədər əsaslar yaranır.

Yeri gəlmişkən, Azərbaycanın yük maşınlarının RSK ilə birgə quldur rejim silahlılarının tərəfindən də yoxlanılmasına qarşı ictimaiyyətin hiddətli münasibətinin ardınca RSK geriyə addım atmaqla bir daha həmin halların təkrarlanmayacağı vədini verib. Bu barədə callber rusdilli saytında məlumat verilib. "Bundan sonra bir nəfər də olsun erməni silahlısı Azərbaycan kolonlarına yaxınlaşmayacaq, Qarabağdakı Rusiya sülhməramlıları buna zəmanət veriblər", deyə məlumatda bildirilir. Vurğulanır ki, rus hərbçiləri bir daha bənzər hadisələrin yaşanmayacağı qeyd olunur.

### RSK-nın üzərinə götürdüyü öhdəliklərini yerinə yetirə bilmədiyi fakta çevrilib

Beləliklə, sual yaranır: RSK-nın zəmanətinə etibar etmək olarmı? Məgər 2 ilə yaxındır ki, Qarabağda müvəqqəti yerləşmiş RSK nəinki zəmanət, qəbul edilən üçtərəfli bəyanatdakı bəndlərin icrasını həyata keçirirmi? Erməni quldurları, separatçıları Azərbaycanın ərazilərindən çıxarılırmı? Laçın dəhlizində boşluqlar aradan qaldırılırmı? Təəssüf ki, yox, belə deyil və bu baxımdan, artıq RSK-nın üzərinə götürdüyü öhdəliklərini yerinə yetirə bilmədiyi fakta çevrilib və artıq belə də qənaətə gəlmək olar ki, üçtərəfli bəyanata əsasən Azərbaycan tərəfi onların vaxtından əvvəl ərazilərimizi tərk etməsi məsələsini qaldıra bilər. Çünki olanlar göz önündədir...

***Rövşən RƏSULOV***

---

# Ermənistan

## Nikolun yox, Ankaranın nəzarətindədir..?

...Nəzərə alın ki, bu gün artıq bir çox hörmətli ermənilər xalqa nəyisə başa salmaqdan, televiziyalara çıxmaqdan, mitinqlərə gəlməkdən əl çəkiblər. Belə görünür ki, artıq bunların heç bir mənası yoxdur. İndi onlar susurlar, əl yelləyib gedirlər, yəni, onların bu hərəkətlərindən belə təəssürat yaranır ki,.. ey böyük erməni xalqı, artıq kiminlə, necə istəyirsən, elə də yaşa...

Bizim(?) baş nazirimiz Nikol Paşinyan isə, belə görünür ki, bundan ancaq böyük həzz alır... Çünki belə insanlar, adətən, heç nəyə əhəmiyyət vermirlər. Reallıq isə Nikolun artıq Ermənistanda "hər şeyə qadir biri"nin olduğunu ortaya qoymaqdadır. Belə görünür ki, o da hər şeyə qsdir olduğunu,.. deyəsən, artıq amlamağa başlayıb.

Bizim "oyanmağımıza" gəlincə, hə...burada proqnozlar çox tutqundur. Doğrudur, buna "fəryad" edən və ya etmək istəyən ermənilər özləri də bunun mənsız olduğunu yavaş-yavaş anlamağa başlayırlar.

O gün Ermənistanın xarici işlər nazirliyinin sözçüsü Vahan Unanyan qırmızı-qırmızı... və hətta utanmadan Nikolun Türkiyədə keçiriləcək forum da iştirakının müzakirə olunmadığını deyərək erməni xalqına yalan satır. Ondan iki gün sonra nazirin özü Ararat Mirzoyan da Nikolun foruma gedəcəyi ilə bağlı yekun qərar qəbul edilmədiyini deyir. Amma gün kimi aydındır ki, o da yalan danışır. Çünki, nazir kimi Mirzoyan da Nikolun Ermənistanda "hər şeyə qadir" və Türkiyəyə getməyə "israrlı" olduğunu bilir.

Qeyd edilməlidir ki, hazırda Ermənistanda bəzi ermənilər hakimiyyətin "Türkiyə ilə yaxınlaşması" Nikolun böyük nailiyyəti kimi təqdim etməyə çalışmasını qəbul etmirlər. Onlara görə, Ermənistandakı bütün prosesə nəzarət edən Ankaradır. Məhz ona görə də, Nikolun hazırda nə deyib, deməməsindən asılı olmayaraq, o Türkiyədəki foruma qatılmağa, bir növ, "məhkumdur".

Yeri gəlmişkən, Türkiyəyə təyyarə reysləri fəaliyyətə başlyandan artıq ermənilər, daha çox da erməni qadınları Rusiyanın yolunu yaddan şıxarmağa başlayıblar. Deyilənə görə, Ermənistan bazarları türk malları ilə "tığ" vurub? Bunun İrəvan ermənilərini də qane etdiyini deyənlər var.

Amma...qane olmayan ermənilər də az deyil. Onlar əsas da gətirirlər- bəs, günü-gündən çiçəkləndiyi deyilən Ermənistan iqtisadiyyatı nə vaxt gül açıb bar verəcək?

Onu da qeyd edək ki, o gün iqtisadçı ekspert Qrant Mikaelyan erməni telekanallarının birinə verdiyi açıqlamada Türkiyənin Ermənistan üçün iqtisadi ekspansiyasının riski adlandırıb.

Amma ermənilər üçün daha maraqlısını isə ölkənin iqtisadiyyat naziri Vahan Kerobyan səsləndirib. Belə ki, o Türkiyə vətəndaşlarının artıq Ermənistanda daşınmaz əmlak və şirkətlər aldığını təsdiqləyib.



Bu arada bildirək ki, ermənilərin hər sadə bir məsələyə öz prizmalarından baxmaları, təbii ki, çoxlarına bəllidir. Belə ki, onlar hər balaca bir məsələdə böyük təfərrüat axtarmağı xoşlayırlar. Deyilənə görə, bu da onların genindən gələn bir şeydir.

Məsələn, iqtisadçı ekspert Mikaelyanı türklərin Ermənistan iqtisadiyyatına sərmayə qoymaq, işçi götürmək və onlara maaş vermək istəməsi tam qane edir.

Amma o da əksər xoflu ermənilər kimi, türklərin bu xoş niyyətlərində "siyasi komponent" ola bilməsindən ehtiyatlanır. Belə ki, hər şeyə erməni gözü ilə baxan Mikaelyana görə, əgər bunlar baş verməzsə, onda türklərin Ermənistana investisiyalar yatırmalarına "icazə verilə bilər".

...Yəni doğrudanmı, Türkiyə ilə münasibətlərin qurulmasını Nikolun "böyük nailiyyəti" kimi qəbul etməyən ermənilər, hələ də bunun Ankaranın nəzarətində olduğunu israr edirlər?

***Ağasəf Babayev***

# Maşın bazarında NƏ BAŞ VERİR?

## SƏBƏBLƏR BƏLLİ OLDU

REPORTAJ

**Azərbaycanda son zamanlara avtomobillərin qiymətində bahalaşma müşahidə olunur. Maşın bazarında avtomobillər çox olsa da, demək olar ki, alıcı səviyyəsi tamamilə yox dərəcəsindədir. Bununla əlaqədar SİA-a olaraq Badamdar qəsəbəsində yerləşən maşın bazarına yolandıq. Bəs gəlin görək maşın bazarında alıcı-satıcı münasibətləri hansı səviyyədədir?**

**Satıcı Tural Əliyev:** "Bu il maşın bazarına 3-cü gəlişimdi. Maşın alveri ilə məşğul olmuram. Öz maşınımı satmağa gəlmişəm. Maşınım ili 2007-ci ildir və modeli "Hunday Sonata"-dı və qiymətini 12.500 manata qoymuşam. Bazarda demək olar ki, hamı alverçidi və özləri alıb üstünə də biraz pul qoyub satırlar. Pandemiyadan əvvəlki vəziyyətdən xəbərim olmasa da, hal-hazırda buradakı vəziyyət çox acınacaqlıdı. Bazarda çox adam olsa da, hamı bura maraq üçün gəlir".



**Alıcı Əlixan Muradlı:** "Bazarda maşın satan çox olsa da amma avtomobil alan demək olar ki, yoxdur. Mən özüm də maşın almaq üçün bazara gəlmişəm amma istədiyim maşına hələ rast gəlməmişəm. Maşın bazarında demək olar ki, çox avtomobil yararsız vəziyyətdədir".



**Satıcı Elçin Bayraməliyev:** "Mən özüm həm alıram, həm də satıram. Maşınları əsasən Koreyadan gətirirəm. Pandemiyadan əvvəl alıcı səviyyəsi çox yüksək dərəcədə olsa da, indi alıcılar sadəcə baxmaq üçün gəlirlər. Maşınlar çox bahadı. Bunun da əsas səbəbi gömrükdə rüsumların qiyməti ilə əlaqədardı".



**Alıcı Elməddin Qafarov:** "Bu gün təsadüfi bir şəkildə maşın bazarına gəlmişəm. Düşünürdüm ki, bəyəndiyim bir maşın olarsa alaram. Elə düşündüyüm kimi də oldu. Elə hal-hazırda maşına baxırdım, siz gəldiz. Bazardakı vəziyyət yaxşıdı. Sadəcə qiymət biraz bahadı. Amma yaxşı maşınlar var".



**Satıcı Mahir Yusifov:** "Mən öz maşınımı satmağa gəlmişəm Maşın "Niva" markasına aiddi. Bazarda alıcı səviyyəsi çox aşağıdı. Demək olar ki, yox dərəcəsindədi. Mən maşınımı 8.800 manat satıram. Fikrimcə, maşını baha qoymamışam. Amma yenə də gəlib baxıb və maraqlanan yoxdu".



**Satıcı Turan Ayvazov:** "Bugünkü gün üçün alıcılıq qabiliyyəti zəifdi. İndi bazarda hansı satıcıdan soruşsaz vəziyyət eynidi. Onlar da deyəcəklər ki, alıcı səviyyəsi yoxdu. Məncə, bunun ən başlıca səbəbi pulsuzluqdu. Əvvəl camaat gəlirdi baxırdı alırdı. Amma indi yalnız baxmaqla kifayətlənirlər".



**Satıcı Ayaz Nağıyev:** "Saat 7-dən burdayam amma hələ də, maşınımı sata bilməmişəm. Qiymətlər yaxşıdı. Çünki yaxşı maşının yaxşı da qiyməti olur. Bayaqdan çox adam gəlib baxır amma sata bilmirəm. Bunun da əsas səbəbi camaat bura gəzmək üçün gəlir, maşın almaq üçün yox".





**Satıcı Əmrah Abdullazadə:** "Çox vaxt maşın bazarına gəlib-getmişəm amma ki, bu ilki kimi alıcılıqda belə aşağı səviyyə görməmişəm. Yəni əvvəl daha yaxşı idi. Eyni zamanda maşınların vəziyyəti daha saz idi. Hal-hazırda 2008-ci ilə aid "Kia Rio" satıram. Amma hələ də alan olmayıb".



**Satıcı Qulu Quliyev:** "Mən həmişə maşın ticarəti ilə məşğul olmuşam. Lakin builki kimi aşağı səviyyədə olmayıb. 2020-ci ilə aid "Mercedes" satıram. Çox adam gəlib baxsa da, alan olmayıb. Demək olar ki, səhərdən burdayam. Bazarda sırf real alıcı yoxdu. Pandemiyadan əvvəl maşın ticarətinin vəziyyəti çox yaxşı olsa da, indiki vəziyyətdə isə Azərbaycanda bu ticarət çökmüş bir durumdadı".





**Alıcı Özgür Uçmaz:** "Mən Türkiyə vətəndaşım amma Gürcüstanda yaşayıram. Təbii ki, ora ilə buranı müqayisə etdikdə Azərbaycandakı maşın bazarında qiymət daha bahadı. Yəni Gürcüstandakı maşınlar həm qiymət, həm də avtomobilin vəziyyəti cəhətdən çox yaxşıdı".







***Banuçiçək Hüseynli***



# ARİF ƏRŞAD- 60

***Ədəbiyyatda dramaturgiya və hekayə janrı ən çətin sahələrdəndir. Burada ilk olaraq yazıçıdan böyük söz ehtiyatı, yüksək savad, dərin dünya görüşü, insan xarakterini yaxşı bilmək, sözlərdən ustalıqla, xəsisliklə istifadə etmək və həm də obrazlı formada istifadə etmək tələb olunur. Ən əsası isə balaca bir hekayədə, böyük bir insan taleyinin bütün çalarlarını orada qabarıq və ya obrazlı şəkildə ustalıqla yazmaq bacarığı da tələb olunur yazıçıdan.***

Bildiyimiz kimi hekayə-yazılı ədəbiyyatın və epik növün olduqca geniş yayılmış janrıdır. Hekayə-povest, roman janrlarının, yəni süjetli nəsrin ən kiçiyidir. Hekayə əsasən tək süjetdən, yaxud da bir neçə süjet üzərində köməkçi süjet vasitəsi ilə, yığcam fikirlərdən ibarət olur.

Beləliklə, hekayə epik növün həcm etibarı ilə kiçik bir janrı olmaqla bir və ya bir neçə süjetlə bağlı olan konkret bir əhvalatı yığcam şəkildə təsvir edir. Hekayə nəsrlə yazıldığı kimi, nəzmlə də yazıla bilir. Nəzmlə yazılmış hekayəyə mənzum hekayə deyilir. Belə əsərlərdə isə əhvalatın geniş təsvirinə ehtiyac duyulmur. Yazıçı, əsasən, bir surətin həyatı və taleyindən, konkret bir hadisədən danışır. Hekayə daha oxunaclı olmaq üçün orada obrazların sayı elə də çox olmur.

Azərbaycan ədəbiyyatında hekayə janrı XIX əsrdə formalaşmış və XX əsrdə inkişaf etmişdir. Ədəbiyyatımızda nəsrlə yazılmış ilk müstəqil hekayə janrının banisi Abbasqulu ağa Bakıxanov hesab edilir. Həmin hekayə "Kitabi-Əsgəriyyə" adlanır və 1837-ci ildə yazılıb. Az bir vaxtda da böyük maraq yaradıb. Cəlil Məmmədquluzadənin "Poçt qutusu", Əbdürrərim bəy Haqverdiyevin "Mirzə Səfər" əsərlərini nəsrlə yazılmış hekayə janrına ən gözəl nümunələri kimi göstərə bilərik. Çünki bu hekayələrin hər ikisi povest və roman qədər dərindir. Hekayə janrının gözlənilməz sonluqla bitən formasına novella deyilir. Novellanı hekayənin digər şəkillərindən fərqləndirən ən əsas cəhət ondakı məzəlilik və hadisənin qeyri-adi sonluqla bitməsidir. Bəzən əsərin adı oxucuda hadisəni təsəvvür etmək düşüncəsi yaratsa da, sonradan həmin əsərdə tamam fərqli süjetlə qarşılaşırıq. Elə götürək yenə də Cəlil Məmmədquluzadənin "Qurbanəli bəy", Əbdürrəhim bəy Haqverdiyevin "Bomba" və Mir Cəlalın "Badamın ləzzəti" hekayələrini. Bunlar hər üçün maraqlı novella nümunəsi sayıla bilər. Həm də bu hekayələr elə Azərbaycan ədəbiyyatında hekayənin ilk novella forması da sayılır.

Yuxarıda yazdığım kimi ədəbiyyatımızda nəzmlə yazılmış hekayələr də var. Nəzmlə yazılan hekayələrə mənzum hekayə deyilir. Ən qədim mənzum hekayələr isə dahi Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poemasındakı hekayələrdir. Amma həmin hekayələr müstəqil işlənməmişdir və poema janrında yazılmış əsərin tərkib hissəsidir. Sonrakı dövrlərdə Abbasqulu ağa Bakıxanov, Qasım bəy Zakir, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir və başqaları da mənzum hekayələr yazıblar. Amma ədəbiyyatımızda nəsrlə yazılmış hekayələr mənzum hekayələrdən daha çox yazılıb. Onların içərisində maraqlı olanları da çoxdur.

Dünya ədəbiyyatında hekayəni bəzən sadəcə novella da adlandırırlar. Dünya ədəbiyyatı tarixində hekayə janrına daha çox müraciət edənlər- Anton Pavloviç Çexov, O. Henri, Nobel mükafatı laureatı Elis Monra, Korney Çukovski, Samuel Marşak, Sergey Mixalkov, Angiya Barto məhz belə yazıçılardan olublar.

Əfsus ki, biz öz ədəbiyyatımızı lazım olan kimi dünyada təbliğ eləyə bilmədiyimizdən, onların hekayələrini xarici dillərə tərcümə eləmədiyimizdən Cəlil Məmmədquluzadənin, Əbrürrəhim bəy Haqverdiyevin və başqa dahilərimizin hekayələri həmin dünya siyahısına düşməyib. Əgər onlar ingilis, fransız, alman, çin və başqa dünya dillərinə tərcümə olunsaydılar, inanıram ki, dünya ədəbiyyatında birincilərdən biri ola bilərdilər. Bunu mən, dünya ədəbiyyatı ilə azadan-çoxdan tanış olan insan kimi deyirəm.

Müasir ədəbiyyatımızda isə bu sahədə gözəl hekayə müəlliflərindən biri də Arif Ərşaddır. Ədəbi dostlar arasında "Hekayələr Ustası" və ya "Hekayə danışan adam" kimi yaxşı tanınan yazıçı ilə biz, yubiley ərəfəsində görüşüb, həmsöhbət olduq.



***MARAQLI HEKAYƏLƏR USTASI***
*(Portret cizgiləri)*

***-Salam Arif müəllim. Siz artıq bir neçə gündən sonra (06-fevral tarixindən) ömrünüzün müdriklik çağına qədəm qoyursunuz. Gəlin 60 illik həyatınıza bir işıq salaq. Uşaqlıq, gənclik və yazıçılığa başladığınız illəri xatırlayacaq.***

- Salam DOSTum. Bütün uşaqlar kimi mənim də atalı-analı uşaqlıq illərim xoşbəxt və qayğısız keçib və belə demək mümkündürsə "baxça tərbiyəsi" (gülümsəyir) almışam. İlk dəfə məktəbə Sumqayıt şəhərində getmişəm. Bu şəhərdə doğulub böyüyən uşaqların və gənclərin prinsipcə passiv həyat keçirməsi mümkün deyildi. Bu baxımdan mənim də həmin dövrlərim maraqlı keçib. Belə ki, orta məktəbdə oxumaqla yanaşı, musiqi və idmanlada məşqul olmağa vaxt tapmışam. İdmanınYunan-roma güləş növünü mənə sevdirən Azərbaycan Güləş Federasiyasının Hakimlər Kollegiyasının sədri, Beynalxalq dərəcəli hakim, Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi, Əməkdar məşqçi, Azərbaycan idmanının inkişafında böyük əməyi, zəhməti, xüsusi çəkisi, hörməti olan və bu gün də idmanı Sumqayıtlı uşaq və gənclərə sevə-sevə öyrədən Qərib Əliyev olub. "SSRİ İdman Ustalığına namizəd" idman dərəcəsindən sonra dərk etdim ki, profisional idmançı olmaq mənlik deyil və diqqətimi təhsilimə yönəltdim. Amma onu deyim ki, profesional güləşçi olmağı bacarmasam da, Qərib müəllimlə dost olmağı bacardım və dostluğumuz bu gün də davam edir. Sonradan Sumqayıt Politexnik Texnikumunun "Metalların kəsilməsi və emalı" fakültəsini "mühəndis-mexanik" kimi, 1981-1983-cü illərdə hərbi xidməti tank komandiri kimi başa vurduqdan sonra isə təhsilimi Azərbaycan Dövlət Neft və Kimya Akademiyasının "Kimya istehsalının maşın və aparatların texnologiyası" fakultəsində davam etdirərək "mühəndis-texnoloq" ixtisası ilə bitirmişəm. Sonradan iş həyatı, ailə qayğıları başımı elə qatdı ki, 60 yaşa nə vaxt gəlib çatdım, bu mənə indidə çox qəribə gəlir. Qaldı yazı məsələsinə, hər birimiz üçün yazıçılıq orta məktəb illərində inşa yazısı ilə başlayır desəm məncə səhv etmərəm. Sadəcə sonradan Allah verən istedaddan istifadə edib bu "inşa" yazılarına bir balaca "duz-istiot" qatırsan, olur hekayə.

***-Arif Ərşad hekayə mövzularını necə fikirləşir?***

-Mən hekayə mövzularını fikirləşmirəm və buna heç ehtiyac da olmur. Həyatımızın istənilən sahəsinə diqqətlə baxsaq nə qədər mövzu bolluğuna rast gələrik. Bunun üçün sadəcə geniş müşahidə qabiliyyətinə malik olmalısan.

***-Siz Sumqayıtda yaşasanız da, kənd mövzusu ilə bağlı çox maraqlı hekayələriniz var və hətta həmin hekayələri oxuyanlar elə bilir ki, bu hadisələr məhz sizin öz başınıza gəlib. Bəs bu mövzular, kənd həyatını yaxşı bilmək haradan yaranır? Şəhər ləhcəsində danışsanız da, bəzən leksionunuzda çox şirin səslənən "ay Toba, başaa dönüm, bəəndən gəl, ənnən gedək" kimi sözlərdən də işlətməyinizin şahidi olmuşam.***

-Onu deyim ki, mən Sumqayıt şəhərində doğulub-böyümüşəm və hal-hazırda isə Bakı şəhərində yaşayıram. 1996-cı ildən paytaxtımızda yaşamağıma baxmayaraq mənim bütün həyat və iş fəaliyyətim Sumqayıt şəhəri ilə bağlıdır və bu gün də orada çalışıram. Artıq 25 ildən yuxarıdır ki, hər gün Bakıdan sevinə-sevinə Sumqayıta işə gedirəm və hər axşam da sevinə-sevinə Sumqayıtdan Bakıya evimə qayıdıram. Neçə illərdir ki, iki sevgi arasında qalmışam, səhərlər doğulduğum şəhər, axşamlar sevdiyim qadın məni maqnit kimi özünə çəkir. Mənim işim çətindir. (gülümsəyir). Heç vaxt kənddə nə evimiz, uşaq vaxtlarında tətil günlərini orada keçirməyə bir komamız və ya yaxınımın evi olmayıb. Bəlkə də buna görə mən bizim dövrümüzdə mövcud olan "pioner düşərgəsi"ndə dincəlməyi xoşlamışam. Hekayələrimdə kənd havasının duyulmasına gəldikdə, yəqin sadə kənd camaatının, elin-obanın içərisində çox olmağımdan, onlarla ünsiyyət saxlamağımdan irəli gəlir. Amma onu deyim ki, ilk dəfə kənd həyatını görəndə nənim 28 yaşım vardı.

***-44 günlük Vətən müharibəsi vaxtı və müharibədən sonra bizim çox az yazıçımız hələ ki, bu mövzuda bədii əsərlər yazıb və yazır. Əslində isə qalib ölkənin yazıçıları bu sahəyə daha çox əsərlər həsr eləməlidirlər. Şəhidlərin, qazilərin həyatı orada özünün maraqlı ifadəsini, əksini tapmalıdır. Arif Ərşadın bununla bağlı hekayələri varmı?***

-Bilirsiz, 44 günlük zəfər gününü 30 il gözləsək də, bu qələbə elə sürətlə baş verdi ki, biz onun sevincini tam olaraq bir müddət sonra yaşayacağıq. Kitablardan və filmlərdən gördüklərimizlə, həyatda baş verənlər tam fərqli oldu. Axı biz müharibələrin illərlə getdiyini kitablardan oxumuş, filmlərdən seyr eşitmişdik. Bu qələbə sevincini, bu fəxarət hissini bizə yaşadan, bir millət kimi bizi şərəfləndirən Azərbaycan ordusuna Eşq olsun! Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə isə can sağlığı diləyirəm. 30 il baş verən ağır həyatımızdan, müharibə, əzab-əziyyət, ölüm-itim və sonda qələbə zəfərimizdən çox yazılmalıdır və inanıram ki, yazılacaq da. Əlbəttə, mənim yaradıcılığımda da bu mövzuda hekayələrim var. Onlardan "Dağlar oğlu", "Qaşqa quzu", "Ata xeyir-duası", "Dağlarda döyüş", "Torpağa qarışan qan", "Cırılmış şalvar" kimi hekayələrimi misal göstərə bilərəm. Bu hekayələrimin hər birində müharibənin dəhşətli fəsadlarını, erməni vandalizminin xalqımıza vurduğu acı və sağalmaz yaralarını ağır da olsa göstərməyə çalışmışam. Bu hekayələri oxuduqca Vətən müharibəsində gedən döyüş səhnələri, torpaqlarımızın azadlığı, müqəddəs amallar uğrunda canından keçən əziz şəhidlərimizin misilsiz qəhrəmanlığı, igid qazilərimizin düşmənə dərs olan şücaəti, rəşadətli Azərbaycan ordusunun dünya hərb tarixinə yazılacaq parlaq qələbəsi və bu arzuların çin olması üçün Azərbaycan xalqının birliyi göz önünə gəlir. Onu da deyim ki, "TEAS Press" Nəşriyyat evi tərəfindən bu yaxınlarda "44 Fəsil" adlı müharibənin acılarından, qələbəmiz və onun xalqımıza yaşatdığı sevinclərindən, duyğularından bəhs edən nəfis şəkildə bir antologiya kitabını çap olunmuşdur. Onu da deyim ki, geniş oxucu kütləsi arasında rəğbətlə qarşılanan 44 hekayədən ibarət bu antologiyada mənim də "Torpağa qarışan qan" hekayəm yer alıb.

Hal-hazırda şərti adı "Qara yazı" olan roman üzərində çalışıram. Çox ağır sujet xətti olan bu romanı əslində demək olar ki, bitirmişdim. Lakin erməni vandalları üzərində qələbəmiz və torpaqlarımızın düşmən tapdağından azad olunması məni bu roman üzərində yenidən işləməyə həvəsləndirib və bununla da romanın məğzi demək olar ki, 50% dəyişəcək və igidlərimizin şücaətinə, qələbəmizə daha çox yer veriləcək.

***-Bu gün Azərbaycan ədəbiyyatında çox əsərlər yazılsa da, onlardan dünya səviyyəsinə çıxanları demək olar ki, azdır. Uzun illər yazıçılıqla məşğul olan Arif Ərşadın buna münasibəti necədir? Bu əsərlərin xarici dillərə tərcüməsi və xarici ölklərdə çapı ilə kim məşğul olmalıdır?***

-Bu çox ağrılı məsələdir. Bunun üçün xüsusi qurumlar olmalı və onlar da bu işlə məşğul olmalıdırlar. Yazıçının işi gözəl əsərlər yazmaq və diqqətini yaradıcılığına yönəltmək olmalıdır.

***-Sovetlərin vaxtında yazıçıların əsərləri dövlət maliyyəsi hesabına çap olunurdu və buna görə yazıçıya da yaxşı qonarar verirdilər. Bu gün yazıçılar əsərlərini özləri öz maliyyəsi hesabına çap etdirirlər. Hətta elə istedadlı yazıçılar var ki, kitablarını çap etdirməyə pulları yoxdur. Buna sizin münasibətiniz necədir?***

-Bəli, belə yazarlar var və deyərdim ki, onların sayı heç də az deyil. Buna münasibətim əlbəttə ki, çox pisdir. Xarici ölkələrdə, elə qonşu Türkiyədə yazıçı əsərlərini nəşriyyata təqdim edir, orada xüsusi adamlar həmin əsəri diqqətlə oxuyurlar. Əgər əsər çapa layiqdirsə, nəşriyyata xeyir gətirəcəksə müəlliflə müqavilə bağlayır və kitabı öz hesabına çap edir. Kitabın təbliğatı və satışı ilə məşqul olan nəşriyyat onun gəlirindən yazıçıya müqavilədə qeyd olunan qonararı verir. Bizdə isə, əsərin yazılıb qurtarmasından sonra, onun çap etdirmək, təbliğatı və satışı yazıçının üzərinə düşür. Bizdə kitabın piyarına, reklamına ayrılacaq vəsaitdən söhbət belə gedə bilməz. Bu bizim üçün hələki şirin bir röyya olaraq qalır. Bunun da nə qədər davam eləyəcəyini də demək mümkün deyil...

***-Ətrafınızda dostlarınız çoxdurmu?***

-İdarə heyyətində təmsil olunduğum, öz mədəni və intelektual səviyyəsi ilə nəinki Sumqayıtda, bütün Azərbaycanda və eləcə də xaricdə yaxşı tanınan Sumqayıt Dostlar Klubunun hər bir üzvü mənim üçün əziz adamlardır. Ora toplanan hər bir insan sözün əsl mənasında DOST sözünə layiq şəxsiyyətlərdir. Mən dostlarımla fəxr edirəm və onların hər bir uğurları ilə qürur duyuram. Yazıçı (göz cərrahı) Hümbət Həsənoğlu, qəzəlxan-şair (texnika elmləri namizədi, professor) Əli Əmirov (Ələmi) , Əməkdar həkim (tibb elmləri üzrə fəlsəfə doktoru, professor ) Mayılxan Tağıyev, Əməkdar incəsənət xadimi (yazıçı, rejissor, dramaturq, publisist, jurnalist ) Ağalar İdrisoğlu, Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetinin kafedra müdiri (texnika elmləri namizədi, professor) Sahib Fərzəliyev, Əməkdar jurnalist ("Bakinetit" qəzetinin Baş redaktoru) Rəhman Orxan, Əməkdar jurnalist ("GXO Sumqaita" qəzetinin və "EYRUZUNSƏSİ" saytının rəhbəri) Eyruz Məmmədov, (şair-publissist, iqtisadçı-iş adamı) Rafiq Mehdi, gənc alim (Nəsimişünas) Vüsal Hətəmov, naşir, sahibkar Akif Şahbazov, gözəl mühəndis Əliyar Fərzəliyev və sahibkar Tahir Məmmədov kimi insanlarla necə öyünməyəsən? Onların hər biri böyük universitet və həyat məktəbidir.

***-Bəs niyə Sumqayıt Dostlar Klubunun idarə heyyətinin ən fəal üzvlərindən biri - yazıçı-şair, publisist, tərcüməçi, Prezident mukafatçısı və nəhayət gözəl, sədaqətli dostumuz Arif Ərşadın adını çəkmədiniz? Axı, biz də onunla öyünürük!***

-Çox sağ olun. Təşəkkür edirəm!

***-Bilirik ki, şeir, hekayə, povest və romanlar müəllifi olan Arif Ərşad dünya klassiklərinin əsərlərini tərcümə etməklə yanaşı, həm də arada aforizimlər də yazır. Son yazdığınız aforizmlərdən bir-ikisini söyləyə bilərsinizmi?***

- Elə ağlıma gələn son üçünü söyləyə bilərəm.

1. Başqa evdə bişən halva şirin olar!
2. Arzulamaq məqsədə çatmağın yarısıdır!
3. Kişi ağzından çıxan sözü boydadır!

***-60 illik həyatınızdan keçmişə baxanda nələrəsə heyfislənirsinizmi?***

-Heyfsilənirəm! Əsasən də ömrümün belə sürrətlə ötüb keçməsinə heyifsilənirəm!..

***Ağalar İDRİSOĞLU***
***Əməkdar incəsənət xadimi***
***26-01-2022-ci il.***

# Erməni tarixçi:
## “Qarabağ Azərbaycandır, ermənilərlə azərbaycanlılar eyni etnik kökə malikdirlər”

**Filip Ekozyants: “Erməni xalqı yalnız 19-cu əsrin sonlarında formalaşdı, VI əsrdə Ermənistan dövləti olmayıb, buna aid sübut yoxdur”**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*



Tanınmış alim-tarixçi Filip Ekozyants ”Caliber” analitik mərkəzinə müsahibəsi Qafqazın qədim tarixi, erməni xalqının formlaşması, erməni millətçiliyi və saxtakarlığı ilə bağlı çox maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Filip Vartanoviç, qərəzsiz obyektivizmə əsaslanan elmi əsərləriniz ermənilərin və "Böyük Ermənistan"ın yaranma tarixini yazan erməni psevdotarixçilərinə meydan oxumağa imkan verdi. Siz düşünürsünüz ki, 17-ci əsrin ortalarına qədər ermənilər sözün müasir mənasında xalq deyildilər. Bu qənaətə necə gəldiniz?***

- Əvvəla, başa düşmək lazımdır ki, XVII əsrdə xalq (və ya millət) anlayışının bizim dövrümüzdə formalaşanlardan fərqli semantik sərhədləri var idi. Deyə bilərik ki, o zaman sözün müasir mənasında bir nəfər də olsun xalq olmayıb. Buna əmin olmaq üçün sadə üsul seçdim. XVII əsrin bütün məlum izahlı və ikidilli lüğətlərində ”xalq” (və ya ”millət”) sözü olan məqalələri araşdırdım və aşağıdakı nəticələrə gəldim.

Birincisi, bu konsepsiyanın sərhədləri son dərəcə bulanıq idi və həm insanların doğulduğu yer və vətəndaşlığı, həm də sosial statusu və peşələri ilə əlaqəli idi. Maraqlıdır ki, o zaman dil ümumiyyətlə ”milli” işarə kimi qeyd olunmurdu. Lakin bir çox məqalələrdə din əsas əhəmiyyət kəsb edirdi.

İkincisi, hətta 17-ci əsr çərçivəsində bu sözün mənası ”dini” olanların xeyrinə ”coğrafi” xüsusiyyətlərini itirərək dəyişikliklərə məruz qaldı.

***- Erməni tarixşünaslığı bölgəmizdə qondarma "Böyük Ermənistan"ın mövcudluğunda inadla israr edir. Siz necə düşünürsünüz, o, mövcud olubmu və əgər varsa, hansı ərazidə?***

- Ermənistan, Böyük Ermənistan, Kiçik Ermənistan, Yuxarı və Aşağı Ermənistan- bu sözlər XVI-XVII əsrlərin xəritələrində və kosmoqrafiyalarında rast gəlinir. Onların sərhədləri bəzi hallarda çox ətraflı təsvir edilmişdir. Müxtəlif vaxtlarda ayrı-ayrı ərazilər Ermənistan adlanırdı. Keçmişin sənədlərində əcdadlarımızın onlara məlum olan torpaqlar haqqında fikirləri var, onlar təbii ki, öyrənilməlidir. Bizə hələ çox şey aydın deyil, məsələn, ”Ermənistan” sözünün özünün mənşəyi və ilkin mənası. Axı mifologiyanı atsaq, belə çıxır ki, biz bu haqda heç nə bilmirik, amma bunu bilmək lazımdır. Bəzi tarixçilər qədim sənədlərdə və ya kitablarda tapdıqları ərazinin bu və ya digər adını dövlətin adı elan etməyə tələsirlər. Bu, çox vaxt həddindən artıq ”vətənpərvərlik” və özlərinin qarşısında ”xeyirxahlıq etmək” istəyi ilə baş verir. Lakin bu və ya digər coğrafi adı dövlətin adını elan etmək üçün müvafiq dəlilləri tapmaq lazımdır: dövlətin adı olan kral fərmanları; qarşılıqlı tanınan sərhədlər; müvafiq dövlət strukturları tərəfindən qəbul edilən qanunlar toplusu; bu strukturların özlərinin olması; o cümlədən, məsələn, ordunun mövcudluğunun və onun funksionallığını təmin edən sistemin mövcudluğunun hüquqi və iqtisadi sənədlərdə təsdiqi; və daha çox. Odur ki, sırf kartoqrafik addan dövlət adına keçid azsaylı dövlətlərin öz ”qədimliyini” iddia edərək keçə biləcəyi bir yoldur.

***- "Erməni məsələsi" ifadəsinin "süni mənşəli" olduğunu deməklə nəyi nəzərdə tutursunuz?***

- Bu çox geniş mövzudur. İndi ”erməni məsələsi”ndən danışırıqsa, mənim fikrim həm erməni, həm də azərbaycanlı alimlərin fikrindən fərqlidir. Və bilirəm ki, heç kim bu istiqamətdə ”dərin qazmamışdır”.

Ermənilər bu məsələnin guya Altaydan buraya bəzi qoşunların gəldiyi vaxtdan mövcud olduğunu iddia edirlər. Mən bu cəfəngiyyatların ümumiyyətlə müzakirə etmək istəmirəm. Azərbaycanlılar deyirlər ki, ”erməni məsələsi”ni erməni apostol kilsəsi uydurub. Bu da heç də doğru deyil. ”Erməni məsələsi” o zaman yaranıb ki, avropalılar Çinə quru yolu çəkmədilər. Təkcə dində deyil, həm də ticarətdə, dəniz yolu ilə Çinə çatmaqda Avropanın avanqardı olan yezuit missionerləri çoxlu sayda insan itirdilər. Beləliklə, onlar quruda bir yol axtarırdılar. XVII əsrin sonlarında onların Rusiyadan keçməsinə icazə verilmədi. Persiya vasitəsilə də asan deyildi, lakin onlar inadla bu yolu çəkdilər. Bəzi zadəgan Avropa evləri missionerlərin köməyi ilə səlib yürüşləri nəticəsində



əldə etdikləri mülkləri geri qaytarmağı planlaşdırırdılar. Sonra erməni tarixinin səhvən milli erməni qəhrəmanı adlandırdığı bədnam İsrail Ori peyda oldu. Lakin İsrail Ori ermənilərin xeyrinə işləməyib. O, Papa və Avropa kral evlərində çalışıb. Böyük siyasətin orbitinə ”erməni məsələsi”ni gətirən də o idi. O, yezuit missionerlərinin hələ XVI əsrin sonlarında Konstantinopolda yunanlara münasibətdə işlətdikləri köhnə hiylədən istifadə etdi: o, erməni xalqı adından Roma Papasına məktublar yazdı, bu məktublarda erməni xalqı guya Roma papasından və Avropa hökmdarlarından Osmanlı imperiyası ərazisindəki erməniləri öz himayələrinə götürməyi, onun ərazisində Müqəddəs Roma İmperiyasının şahzadələrindən birinin padşah olduğu Ermənistan krallığını yaratmağı xahiş edirdi.

İsrail Orinin bu cəhdi onun və himayədarlarının ümid etdiyi nəticəni verməsə də, dünya siyasətində ”erməni məsələsi” öz yerini tutdu. Artıq 20-ci əsrdə həqiqətən ”təbliğ edildi”.

***- Ermənistanda inanırlar ki, İncildə guya "erməni Araratı" haqqında deyilənlər var. Bəs niyə müqəddəs kitabda ermənilərin varlığı haqqında bir kəlmə belə yoxdur?***

- Bu barədə tarixçilər deyil, şarlatanlar danışır. Mən orta əsrlərin sərhədlərini qarışdıran çoxlu tarixçiləri tanıyıram. Bu haqda danışmağın mənası yoxdur. İndi təbliğat məqamlarına toxunmağa çalışırsınız. Uzun müddətdir ki, mən bu ”bloqçuluq” cəfəngiyyatına qoşulmaq istəmirəm və mən dəfələrlə göstərmişəm və sübut etmişəm ki, bu cür ifadələrin heç bir ciddi əsası yoxdur.

Bəli, İncildə Araratın adı çəkilir, amma Ermənistanın adı çəkilmir. Lakin İncil tarixi sənəd deyil. Onun tarixi dəyəri aşağıdakılardan qaynaqlanır: onun konkret nüsxələrinin nə vaxt, harada və kim tərəfindən yaradıldığı, yalnız bu mənada tarixi sənəddir. Ancaq İncilin məzmunu bir mifdir. Bu məsələni həll edərkən nəzərə almalıyıq.

***- Yaxşı. Belə maraqlı sual. Ermənilərlə fransızların yaxınlığının səbəbi nədir və Ermənistan niyə "kiçik Fransa" adlanır?***

- Fransızlarla hər şey çox sadədir. Səlibçi dövlətləri yaradan fransızlar idi. Və səlibçilər əsasən fransız dilli cəngavərlər idi. Onların nəsilləri Qərbi Asiyada qaldı. Bəzi ailələr hələ 16-cı əsrdə Qərb inancını qoruyub saxlamışdı. Vaxt keçdikcə onların bir çoxu Roma ayininə uyğun liturgiya apara bilən kahinlərin olmaması səbəbindən Köhnə Şərq Ritesi Kilsəsinə köçdü, lakin fransız əcdadlarının xatirəsi qorunub saxlanıldı. Və təbii ki, Osmanlı İmperatorluğunun göbəyində təsir adalarına sahib olmaq üçün fransızların özləri üçün bunu təşviq etmək və dəstəkləmək faydalı idi. Qısacası budur.

***- "Pierre d'Aviti ermənilər haqqında" adlı məşhur məqalənizdə XVII əsrdə "Azərbaycan" adının artıq kifayət qədər qədim olduğunu, etimoloji mübahisələrə baxmayaraq, o dövrdə artıq öz dövlətçiliyinə malik olduğunu yazırsınız...***

- Bəli, bu barədə həmin məqalədə ətraflı yazmışdım və xatırlatmaq istəyirəm ki, məşhur ”Jan Şardenin gündəliyi”ndə (Journal du voyage du Chevalier Chardin en Perse et aux Indes Orientales) müəllif o dövrə məlum olan ”Azərbaycan” adının şərhinə görə oxucuya bir neçə variant təklif edir. Maraqlıdır ki, yerli sakinlər Azərbaycanı Avropada necə adlandırırlarsa, o cür adlandırırlar, bu, Asiya və xüsusən də Qafqaz regionu üçün nadir təsadüfdür: məsələn, Ermənistan və Gürcüstanın əvvəlki əsrlərdə öz adları ilə bu ölkələrin bu gün beynəlxalq səviyyədə qəbul edilmiş adları heç də üst-üstə düşmür.

**Ardı Səh. 15**

# Erməni tarixçi:

## "Qarabağ Azərbaycandır, ermənilərlə azərbaycanlılar eyni etnik kökə malikdirlər"

Filip Ekozyants: "Erməni xalqı yalnız 19-cu əsrin sonlarında formalaşdı, VI əsrdə Ermənistan dövləti olmayıb, buna aid sübut yoxdur"



Əvvəli Səh. 14

***- Bir sıra erməni mənbələrində erməni etnosunun formalaşmasının eramızdan əvvəl 13-6-cı əsrlər arasında baş verdiyi göstərilir. Bu barədə nə düşünürsünüz?***

- Məncə, bu, həddindən artıq şişirtmə və heç də elmi olmayan "qeyrət"dən irəli gəlir. Xalqımızın öz əsl keçmişinə olan sağlam marağını söngitmək üçün xoş bir nağıldır.

***- Yəni, çox sonralar olub? Tam olaraq nə vaxt?***

- Erməni xalqı nəhayət, yalnız 19-cu əsrin sonlarında formalaşdı.

- Ermənilər niyə özlərinə hay deyirlər? Məsələn, erməni tarixçiləri bu sözün e.ə 1500-1290-cı illər arasında qədim Het mixi yazılarında təfərrüatlı şəkildə təsvir edildiyi iddia edilən Hayas krallığının adından gəldiyini iddia edirlər.

- Bu, heç kimin təsdiq edə bilmədiyi və lazımi sənədlərin olmaması səbəbindən uğur qazana bilməyəcək ehtimaldan başqa bir şey deyil. Bütün bunlar boş söhbətlərdir, yenə insanları həqiqətdən yayındırmaq üçün nəzərdə tutulub.

***- Belə olan halda, erməni həmkarlarınızın erməni dilinin yunan və hind-iran dilləri ilə genetik əlaqəsi olması və proto-hind-avropa dilinin Ermənistan dağlarında yaranması barədə dedikləri nə dərəcədə doğrudur?***

- Bu, onu bu formatda qaldırmaq üçün çox mürəkkəb və geniş məsələdir. Əgər bu məsələ müzakirə olunursa, o zaman müzakirəni məntiqi sonluğa çatdırmaq lazımdır. Sadəcə onu deyə bilərəm ki, müasir dilçilər erməni dilinin müəyyən bir tarixi dövrdəki vəziyyəti ilə bağlı müvafiq dövrə aid əlyazma mətnlərinin kifayət qədər olmaması və ya ümumiyyətlə olmaması barədə mühakimə yürüdürlər. Bəzən müasir alimlər belə əlyazmalara malik olduqlarına and içən sələflərinin tapıntılarına əsaslanaraq nəticə çıxarmağa imkan verirlər. Dilin formalaşması prosesi bəşər tarixinin ən qaranlıq tərəflərindən biridir. Təəssüf ki, bizi hər şeyi başa düşdüklərinə inandırmağa çalışan və tələsik qənaətlərini "yedirən" insanlar var.

***- Azərbaycan tarixçilərinin Qafqaz Ermənistanının Azərbaycan torpaqlarında süni şəkildə yaradılmış ermənilərin vətəni olduğu qənaətləri ilə razısınızmı? Necə ki, Anadolu və Cənubi Qafqaz ermənilərin tarixi vətəni deyildi, onların müstəqil dövləti yox idi?***

- Yox, razı deyiləm. Heç kim bizi qəsdən harasa aparmadı. Burada cavab xalqların hərəkətində deyil, adlarda, daha dəqiq desək, yeni adların meydana çıxmasındadır. Azərbaycanda müxtəlif dinlərin nümayəndələri yaşayırdılar. Onların arasında xristianlar da var idi. Bu xristianların bəziləri nə vaxtsa erməni adlandırılmağa başlanıb. Heç yerə köçmədilər. 19-cu əsrin əvvəllərində Rusiya İmperiyası ilə Şah dövləti arasında xristian və müsəlman əhalinin qarşılıqlı mübadiləsinin bir hissəsi kimi köçürülmə hadisəsi təcrid olunmuş haldır, ancaq bəzi bölgələrdə etnik xəritəni əsaslı şəkildə dəyişdirə bilər.

Mən dəfələrlə dediyim və izah etdiyim fikrimə sadiqəm: ermənilərlə azərbaycanlılar eyni etnik kökə malikdirlər və təbii ki, onları çoxəsrlik qohumluq bağları birləşdirir. İki-üç əsr əvvəl biz ancaq dilimizə, dinimizə görə seçilirdiksə, bu gün təbii ki, bu fərqlər daha çoxdur. Mənəvi, mədəni və ideoloji təcriddə keçirdiyimiz vaxt öz işini görür.

***- Erməni tarixçilərinin Ermənistanın xristianlığı qəbul edən ilk dövlət olması barədə iddiaları əsaslandırılıbmı?***

- Birincisi, nəinki Ermənistanın bu məsələdə birinci olması, hətta göstərilən vaxtda- IV əsrdə onun dövlət olmasına dair heç bir sübut yoxdur.

İkincisi, bu torpaqlarda kiminsə bu gün bildiyimiz xristianlığı qəbul etdiyinə dair heç bir sübut yoxdur. Sizin qeyd etdiyiniz erməni tarixçilərinin variantı sırf təbliğat xarakteri daşıyır, lakin elmilikdən çox uzaqdır.

***- Ermənilərin "soyqırım" adlandırdıqları 1915-ci il hadisələri ilə bağlı çox maraqlı təsəvvürünüz var. Düşünürsünüz ki, "soyqırım" prosesi 100 il əvvəl deyil, "soyqırım" sözü və anlayışının özü ilə başlayıb, bu gün də davam edir. Nə deməyə çalışırsınız?***

- Demək istəyirəm ki, ötən əsrin 40-cı illərində "soyqırım"ın qurbanı olduğumuzu bizə çatdıran andan biz normal insan həyatı yaşamağı dayandırdıq, çünki o andan onu "soyqırım"ın tanınmasına həsr etdik; deyəsən bu sözə yapışmışıq və bu söz bizi özü ilə hər yerə sürükləyir. Tarix qan, qəm, göz yaşı ilə doludur. Amma əgər başqa xalqlar öz kədərli keçmişindən çoxdan çıxıblarsa, biz, əksinə, daha da dərinləşirik.

Üstəlik, tarixçilərimizin dünyaya soyqırım olduğunu sübut etməyə çalışdıqları faktlar çox vaxt fakt deyil. Bəli, insanlar öldü. Ermənilər türklərin, türklər ermənilərin, türklər və ermənilər kürdlərin əlindən öldü və s. Amma qarşımıza məqsəd qoysaq və bu fəlakətin səbəblərini tapsaq, o zaman Osmanlı dövlətinin dağıdılmasında iştirak etmiş, Birinci Dünya Müharibəsi illərində Osmanlı İmperiyasının düşmənləri üçün- Avropa dövlətləri üçün işləyən ermənilərə tapacağıq. Və bu yenə də birdən çox siyasətçi nəslinin qazanc əldə etməyə çalışdığı qaranlıq hekayədir.

Prezident Ərdoğan çox gözəl bir təklif etdi: gəlin arxivləri açıb birlikdə araşdıraq. Onun mövqeyi bəllidir: o, həqiqətdən qorxmur. Yalan çıxarmağa müvəffəq olanlar həqiqətdən qorxurlar. Türklər isə 20-ci əsrin əvvəllərində erməni qardaşlarının başına bir faciənin gəldiyini inkar etmirlər. Və hər il apreldə yas tuturlar. Bunu xatırlayırlar. Başqa nə lazımdır? Hər il iyunun 22-də müharibədə həlak olmuş slavyanların abidələrinə çoxmu almanlar gəlir?..

***- Elmi qənaətlərinizə görə, 19-cu əsrin sonunda erməniləri türklərə, 20-ci illərin sonunda isə azərbaycanlılara düşmən etdilər, indi də rus xalqına qarşı nifrət virusu yeridirlər. Siz erməni millətçilərini, millətlər arasında bu nifrəti səpənləri nəzərdə tutursunuz?***

- Yox. "Erməni millətçiləri"- bu sözlərin heç bir mənası yoxdur. Heç kim tam başa düşmür ki, bu erməni millətçiləri kimdir, qərargahları haradadır, necə qərar verirlər, necə həyata keçirirlər və s. "Erməni millətçiliyi" təbliğat terminidir, konkret deyil. Mənim bütün işlərim xalqımızın şüurunun manipulyasiyasının mənbəyini tapmağa yönəlib. Və onun bu gün harada olduğunu anlamaq üçün əvvəllər harada olduğunu, əvvəldən harada olduğunu anlamaq lazımdır.

***- Dəfələrlə demisiniz ki, Qarabağ Azərbaycan torpağıdır, ona görə də soydaşlarınız tərəfindən tənqid olunursunuz. Bu arada erməni millətçiliyi təhlükəli bir şeydir. Qorxursunuz?***

- Qorxuludur. Amma bizi manipulyasiya edənlərdən qorxmuram. Bunlar ağıllı adamlardır, yəni bilirlər ki, mənə və ya ətrafıma edilən hər hansı bir zərər erməni xalqına təsirimi daha da artıracaq. Mən cahil və impulsiv insanlardan qorxuram. Bunlar təbii ki, təhlükəlidir. Allah qoysa hər şey yaxşı olacaq.

***- Ermənistana tez-tez gedirsiniz? Axırıncı dəfə orada nə vaxt olubsunuz?***

- Çoxdan. Mən Ermənistandan deyiləm. 1985-87-ci illərdə orada işlədim, sonra Xarkova qayıtdım. 1988-ci ildə Ermənistanda zəlzələ baş verəndə mən dağıntıları təmizləmək üçün Leninakana getdim. O vaxtdan Ermənistanda olmamışam.

***- Erməni dostlarınız çoxdur?***

- Kifayət qədər. Baxmayaraq ki, mənim çox dostum yoxdur.

***- İndiki post-münaqişə dövründə Ermənistan hansı nəticələr çıxarmalıdır?***

- Mənim üçün bir səhv göz qabağındadır: bizim tarixə münasibətimiz budur. Çox səthi və qeyri-ciddidir. Amma əsas məsələ sülhü bərpa etməkdir. Düşünürəm ki, bunu necə edəcəklərinə qərar verəcəklər. Bu məsələdə hər şeyə ayıq baxmaq vacibdir və hər şey düzələcək.

***- Xalqlarımızın bir regionda dinc yanaşı yaşaması şansı varmı?***

- Əminəm ki, var.
- Obyektiv fikrinizə görə təşəkkür edirəm.




***Tərcümə - Elçin Bayramlı***

# Corcinadan

## Ronaldoya 200 minlik hədiyyə



Corcina Rodriges sevgilisi - "Mançester Yunayted"in futbolçusu Kriştiano Ronaldoya ad günündə avtomobil hədiyyə edib. Qol.az xəbər verir ki, bu barədə Corcina instaqram hesabında paylaşım edib.

"37 yaşın mübarək, həyatımın sevgisi. Səni sonsuz sevirik. Sən Allahın bizə verə biləcəyi ən yaxşı ata və həyat yoldaşısan. Başına gələn ən gözəl şeylərə layiq olan əsl döyüşçü. Sən mükəmməl və ilham qaynağısan" - deyə, o, yazıb. "Cadillac Escalad" markalı avtomobilin qiyməti 200 min dollardan çoxdur.

Qeyd edək ki, cütlüyün Alana Martina adlı 4 yaşlı qızı var. Ronaldonun 11 yaşlı Kriştiano adlı oğlu, Yeva və Mateo adlı əkizləri surroqat anadan dünyaya gəlib. Hazırda ikili biri qız, digəri oğlan olmaqla əkiz övladlarının dünyaya gəlməsini gözləyir.

**«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR**



1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

## Allergiyası olanlara məsləhət: Sintepon yorğan-döşəkdən istifadə edin!

Məişət tozları və allergenlərə ən çox istifadə olunan yorğan və döşəklərdə rast gəlinir. Keçmişdə yun yorğan və döşəklər ən keyfiyyətli yataq dəstləri sayılırdı. Yunun bütün neqativ enerji və radiasiyanı özünə çəkdiyi elmi tərəfdən sübut olunub. Eyni zamanda, yun istini tənzimlədiyi üçün orqanizmi üşüməyə qoymur, hətta revmatizm xəstəliyindən əziyyət çəkənlərə qoyun yunundan hazırlanmış yataq dəstlərində yatmaq məsləhət görülür. Digər tərəfdən yundan olan yataq dəsti allergik xəstəliklərə qarşı həssaslığı olanlar üçün narahatlıq yarada bilər.

Həkim-terapevt Sevinc Zeynalova bildirib ki, yunun içində gənəciklər var və allergiyası olmayanlara heç bir narahatlıq vermir: "Allergiyası olanların isə yun yorğan-döşəklərdə yatmasına və tük yastıqdan istifadə etməsinə qadağa qoyulur. Çünki yunun içindəki gənəciklərin ifrazatları və epidemisin özü xəstələrdə allergik reaksiyalar verə bilər".

Mütəxəssislər yenilənən və müasir dünyaya uyğunlaşanların yundan hazırlanan yataq dəstlərinə üstünlük vermədiyini bildirirlər. Onlar yunun yuyulub qurulması, sonra ondan döşək sırımağın əziyyətli proses olduğunu əsas götürürlər. Ona görə də daha rahat hazırlanan, tez yuyulub qurudulan, olduqca yüngül sinteponlara üstünlük verirlər. "Sinteponun tərkibində gənəcik olmadığından heç bir allergik reaksiya vermir. Allergiyası olanların sintepon yastıq və sintepon yorğan-döşəkdən istifadə etməsi məsləhətdir".

Həmin yataq dəstlərini alarkən üç xüsusiyyətə diqqət yetirmək vacibdir: sinteponların hipoallergen olması, işin keyfiyyəti və materialda xoşagəlməz qoxunun olmaması. Qeyd edək ki, təmiz tərkibli sinteponlar antibakterial olur, yuyulduqda tez quruduğu üçün bakteriyaların inkişafına imkan yaratmır.

Otaqda toz yığılan əşyaları mümkün qədər azaltmaq, həftədə bir dəfə yorğan-döşəkləri havaya çıxarmaq, yataq otağındakı döşəküzlərini tez-tez dəyişmək, tozsoranla onları yaxşı təmizləmək lazımdır. Məişət tozlarına qarşı həssaslığı olanlar üçün gigiyenik şərait yaratmaq məsləhət görülür.

## Hansı tərəvəzlərdə bol protein olur?

"Protein bədən funksiyaları üçün lazım olan əsas makronutrientlərdən biridir. Zülallar böyümə, inkişaf, hüceyrə bərpası, əzələ meydana gəlməsi, immunitet sistemi, maye balansı və qan istehsalı kimi bir çox hadisədə iştirak edir. Zülalların tikinti materialları amin turşularıdır və onlar insan orqanizmində müxtəlif sıralarda olan 20 müxtəlif amin turşusunun birləşməsi nəticəsində əmələ gəlir. Lakin bu amin turşularından 8-i orqanizm tərəfindən istehsal oluna bilmədiyi üçün qida ilə orqanizmə qəbul edilməlidir". Bu sözləri SİA-ya açıqlamasında dietoloq Ceyhunə Yusifova deyib. Onun sözlərinə görə, hər qidanın tərkibində olan zülalın miqdarı fərqli olsa da, protein baxımından çox zəngin olan qidalar bunlardır: Yumurta, balıq, toyuğun döş əti, hinduşka döş əti, yağsız mal əti, kəsmik, pendir, qatıq, süd, çiy badam, fıstıq, balqabaq toxumu, brokoli, brüssel kələmi, yaşıl mərcimək, bulqur, yulaf, kinoa, yumurta.

Protein tərkibi: Bütün yumurtalarda olan kalorilərin 33%-i zülaldan gəlir. Böyük bir yumurtada orta hesabla 6 qram protein və 78 kalori var.

Balıq: Sağlamlıq üçün çox faydalı qidadır. Bundan əlavə, bəzi növlər çox yüksək omeqa-3 tərkibinə malikdir. Tərkibində yüksək protein olan toyuq döşü dərisiz istehlak edilərsə, az yağlı, yaxşı bir protein qaynağıdır.

Protein tərkibi: Toyuq döşündəki kalorilərin 75%-i zülaldan gəlir. 100 qram izqara toyuq döşündə orta hesabla 30 qram protein və 151 kalori var.

Hinduşka döşü: Bir çox cəhətdən toyuq döşünə bənzəyir. Hinduşka döşü, toyuq döşü kimi az kalorili və yağlı olan yaxşı bir protein qaynağıdır. Hinduşka döşündəki kalorilərin 82%-i zülaldan gəlir. 100 qram qızardılmış yağsız hinduşka döşündə orta hesabla 33 qram protein və 147 kalori var.

Badam lif, E vitamini, maqnezium kimi vacib qidalarla zəngindir.

30 qram (10-15 ədəd) çiy badam orta hesabla 6 qram protein və 164 kalori ehtiva edir.

Fıstıq: zülal, lif və maqneziumla zəngindir.

Zülal tərkibi: Fıstıqdakı kalorilərin 18%-i zülaldan gəlir. 40 qram (1 ovuc) fıstıqda orta hesabla 10 qram protein və 230 kalori var.



Balqabaq toxumu

Balqabaq tumları dəmir, maqnezium və sink kimi qidalarla zəngindir və qəlyanaltılar üçün çox sağlam seçimdir.

Protein tərkibi: Balqabaq toxumunun kalorisinin 22%-i zülaldan gəlir. 20 qram (1 ovuc) balqabaq tumunda orta hesabla 6 qram protein və 113 kalori var".

*Ayşən Vəli*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600